DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (338) / SENTYABR 2019-CU İL



## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ OLUB, SABİQ PREZİDENT JAK ŞİRAKIN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI VERİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər.

Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladı.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdılar.

Səfirlə söhbət edən Prezident İlham Əliyev dedi: Cənab səfir, bizim başsağlığımızı qəbul edin. Prezident Şirak Azərbaycanın yaxın dostu olmuşdur. Biz onu mənim atamla şəxsi dostluğu başlayan dövrdən tanıyırıq və onların birgə səyləri nəticəsində ölkələrimiz arasında çox yaxın tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz onunla görüşlərimizi xatırlayırıq. Bildiyiniz kimi, mən ilk dəfə Prezident seçiləndə, xaricə etdiyim ilk rəsmi səfər Fransaya olmuşdur. O vaxt Prezident Şirak məni rəsmi səfərə dəvət edən ilk xarici dövlət başçısı olmuşdur və bu, bizim əməkdaşlığın çox yaxşı göstəricisi idi. O vaxtdan bəri ölkələrimiz arasında əməkdaşlıq uğurla inkişaf edir. Bu yaxınlarda sizinlə də görüşdə mən ölkənizin prezidentləri ilə görüşlərdən xatirələrimi bölüşdüm. Bir daha bizim başsağlığımızı qəbul etməyinizi xahiş edirəm.

Səfir Zakari Qros dedi: Cənab Prezident, hörmətli Birinci vitse-prezident, buraya gəlməyinizə və sözlərinizə görə Sizə təşəkkür edirəm. Prezident Makron və Fransa xalqı adından səmimi sözlərinizi və burada olmağınızı yüksək qiymətləndirdiyimizi bildirmək istəyirəm. Sizin də qeyd etdiyiniz kimi, Prezident Şirak Fransada və beynəlxalq arenada birləşdirici rol oynayaraq sülhü təşviq etmiş dövlət xadimi olmuşdur. Gəlişiniz bizi təsirləndirdi, Sizə minnətdaram.

### BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA ŞAMAXI CÜMƏ MƏSCİDİNİ ZİYARƏT EDİB



Səh. 2

### «Multikulturalizmə giriş» dərsliyinin təqdimatı olub



Səh. 3

### "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"



Səh. 7

### "DİNŞÜNASLIQ EKSPERTİZASI: HÜQUQ VƏ TƏCRÜBƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Səh. 10

# AZƏRBAYCANIN YƏHUDİ İCMASINA



Hörmətli həmvətənlər!

Sizi – respublikamızın yəhudi əsilli vətəndaşlarını yeni il bayramınız Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycanda əsrlər boyu müxtəlif etnik və dini qrupların nümayəndələri, o cümlədən yəhudilər dostluq, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşamış, heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmadan milli-mədəni və dini dəyərlərini günümüzədək qoruyub saxlamışlar.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudi icması əsl vətəndaşlıq və Azərbaycançılıq mövqeyindən çıxış edərək respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində və ictimai-siyasi proseslərdə fəal iştirak edir. Əminəm ki, yəhudi əsilli həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da çiçəklənməsi üçün səylərini əsirgəməyəcəklər.

Hər il təntənə ilə qeyd olunan Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı və xeyirxahlığı təcəssüm etdirir. Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə səadət və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 26 sentyabr 2019-cu il.

# Prezident İlham Əliyev: *Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir*

Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr vardır. Təbii ehtiyatlar, neft-qaz resursları - bunlar sadəcə olaraq bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 89-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Sabunçu rayonu Maştağa qəsəbəsi Savalan yaşayış massivində 28 saylı tam orta məktəbin açılış mərasimində çıxışı zamanı söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin avqust ayından oktyabradək olan dövrü əhatə edir.

Çoxcildliyin 89-cu kitabında Prezident İlham Əliyevin Rusiya Federasiyasına, Xorvatiya, Tacikistan və Qırğız respublikalarına səfərləri, həmçinin Rusiya, Türkiyə və Monqolustan prezidentlərinin Azərbaycana səfərləri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə dair informasiyalar, mətbuata bəyanatların mətnləri toplanıb.

Nəşrdə Azərbaycan Prezidentinin Yaponiya, İsrail, Avstriya, Bolqarıstan, ABŞ və digər dövlətlərin, ATƏT-in, NATO-nun yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair materiallar yer alıb.

Prezident İlham Əliyev bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.




Oxucu kitabda dövlətimizin başçısının Bakı şəhərinin erməni işğalçılarından azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradda və Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə Milli Məclisdə keçirilmiş təntənəli iclasda çıxışlarının mətnləri ilə tanış ola bilər.

Azərbaycan Prezidentinin Masallı, Biləsuvar, Xızı, Lənkəran, Astara rayonlarına, Quba şəhərinə səfərlərinə dair materiallar, Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, digər mühüm tədbirlərdə nitqlərinin mətnləri də bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 89-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA ŞAMAXI CÜMƏ MƏSCİDİNİ ZİYARƏT EDİB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 14-də Şamaxı Cümə məscidini ziyarət ediblər.

Məscidin imamı Mərhəmət Mustafayev ziyarətə gələnlərin bu müqəddəs ocağın yenidən bərpa olunmasını minnətdarlıqla xatırladıqlarını bildirib.

**Mehriban Əliyeva:** Buraya xaricdən turistlər çox gəlir?

**Mərhəmət Mustafayev:** Çox gəlirlər, gündə təxminən 500 nəfər.

**Mehriban Əliyeva:** Hansı ölkələrdən?

**Mərhəmət Mustafayev:** Bütün Avropadan, Səudiyyə Ərəbistanından, Amerikadan gələnlər var. Allah cənab Prezidentdən razı olsun.

Tarixin müxtəlif dövrlərində, təbii fəlakətlərə, repressiyalara və dağıntılara məruz qalmış Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir edilib. Prezident İlham Əliyev Fondun bu təşəbbüsünə dəstək olub, Azərbaycan - Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş edib, xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına, gələcək nəsillərə ötürülməsinə töhfə verib. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Prezident İlham Əliyev məscidin açılışında iştirak edib. Beləliklə, bu məscid təkcə Şamaxı sakinlərinin deyil, ölkəmizə gələn qonaqların da ziyarət etdiyi müqəddəs məkanlardan biridir.

Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim hədiyyə edən məscidin imamı Mərhəmət Mustafayev deyib:

- Sizi Azərbaycanın, Şamaxının bu qədim məscidində salamlamaqdan çox böyük şərəf duyuram. Allah sizlərdən razı olsun. Burada sizlərin çox böyük zəhməti var. Allah cənab Prezidentdən razı olsun. Allahın kitabını, İnşallah, Sizə hədiyyə edirəm. Allah Sizi hifz eləsin.

**Mehriban Əliyeva:** Çox sağ olun.

# ATƏT-İN İCLASINDA AZƏRBAYCANIN MİLLİ AZLIQLARIN HÜQUQLARININ QORUNMASI SAHƏSİNDƏ NAILİYYƏTLƏRİNDƏN DANIŞILIB




Sentyabrın 24-27-də Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunmuş yekun iclası keçirilib.

Hər il payızda keçirilən bu tədbirdə ATƏT-ə üzv olan ölkələr insan ölçüsünə dair konsensus yolu ilə qəbul etdikləri öhdəliklərin yerinə yetirilməsinə dair hesabat verirlər. Sentyabrın 27-dək davam edən yekun iclasda ATƏT-ə üzv olan 57 ölkə ilə yanaşı, beynəlxalq təşkilatlar, QHT-lər də iştirak ediblər.

Sentyabrın 24-də sözügedən tədbirin "Tolerantlıq və qeyri-ayrı-seçkilik. Milli azlıqlara mənsub olan şəxslərin hüquqları" mövzusuna həsr olunmuş 12-ci işçi sessiyasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edib, tədbir iştirakçılarına ölkəmizdə dövlət tərəfindən milli azlıqların hüquqlarının qorunması sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

E.Nəcəfov çıxışında Azərbaycanda milli azlıqların hüquqlarının qorunmasının ölkəmizin multikulturalizm siyasəti çərçivəsində həyata keçirildiyini bildirib. O, Azərbaycan Respublikasının multikulturalizm siyasəti çərçivəsində ölkədə yaşayan milli azlıqların sosial, iqtisadi və mədəni məsələlərinin yüksək səviyyədə həll olunduğunu qeyd edərək burada milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması istiqamətində dövlət tərəfindən mühüm işlərin görüldüyünü tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Şöbə müdiri konkret faktlara əsaslanaraq qeyd edib ki, 2004-cü ildən indiyədək ölkə regionlarının sosial-iqtisadi inkişafına, o cümlədən milli azlıqların kompakt yaşadıqları regionların sosial-iqtisadi inkişafına yönələn və hər biri 5 ili əhatə edən 4 dövlət proqramı qəbul olunub. Əvvəlki 3 proqramın hər biri uğurla icra edilib. Bununla yanaşı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər çərçivəsində bir neçə Prezident sərəncamlarının imzalandığı diqqətə çatdırılıb. Bu sərəncamlara əsasən, milli azlıqların kompakt yaşadıqları cənub, şimal və şimal-qərb bölgələrində sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və s. sahələrdə böyük layihələr həyata keçirildiyi bildirilib.

# AŞURA GÜNÜ İLƏ ƏLAQƏDAR TƏZƏPİR MƏSCİDİNDƏ QANVERMƏ AKSİYASI KEÇİRİLİB



Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də aksiyaya qoşulublar.

Qeyd edək ki, irsi qan xəstəliklərindən əziyyət çəkənlərə Aşura günü ilə əlaqədar Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilir.

# "Multikulturalizmə giriş" dərsliyinin təqdimatı olub



***Sentyabrın 14-də Azərbaycan Dillər Universitetində (ADU) "Multikulturalizmə giriş" dərsliyinin təqdimatı keçirilib.***

Tədbiri giriş sözü ilə açan ADU-nun rektoru, akademik Kamal Abdulla ölkəmizdəki tolerant mühitdən, Azərbaycan multikulturalizmindən bəhs edib. Bildirib ki, Azərbaycanda istər millətlərarası və dinlərarası münasibətlər, istərsə də multikultural dəyərlər sahəsində əsrlər boyu təşəkkül tapan ənənələr mövcuddur. Multikultural əhval-ruhiyyə və multikultural dəyərlərə qayğıkeş münasibət əsrlərdən bəri Azərbaycan xalqına xas olan keyfiyyətdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm siyasəti Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirildi və hazırda uğurla davam etdirilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin tövsiyəsi və Təhsil nazirinin müvafiq əmri ilə 2019-2020-ci tədris ilindən etibarən ölkəmizin bütün ali təhsil məktəblərinin bakalavr səviyyələrində "Multikulturalizmə giriş" əsas fənn kimi tədris ediləcək. Bu məqsədlə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən fənni tədris edəcək müəllimlərin bilik səviyyələrini artırmaq üçün sentyabrın 2-dən 13-dək hazırlıq treninqi təşkil olunub. Treninqdə 100-dən çox müəllim iştirak edib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) və BBMM-in birgə layihəsi olan "Multikulturalizmə giriş" dərsliyi nəşr edilib. Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir. Dörd bölmədən ibarət kitabın 1-ci bölməsində "Multikulturalizmə giriş" fənninin predmetindən və əhəmiyyətindən bəhs edilib. Digər bölmələrdə isə dini, etnik müxtəliflik və multikulturalizm mövzularına geniş yer verilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib: "Ölkələrin elm, təhsil, mədəniyyət, iqtisadi, siyasi, səhiyyə və digər sahələrdəki nailiyyətləri müvafiq göstəricilər vasitəsilə müəyyən olunur. Bu göstəricilərlə ölkələrin müvafiq sahə üzrə yeri müəyyən olunur. Multikulturalizm sahəsində də müəyyən göstəricilər var. Multikulturalizm ölkənin inkişafının mühüm bir sahəsini əks etdirir ki, bu da ilk növbədə, etnik mədəni müxtəlifliklərin qorunmasıdır. Etnik mədəni müxtəlifliklərin qorunmasının əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk növbədə, cəmiyyətdə inteqrasiya proseslərinə səbəb olur və şərait yaradır. Multikulturalizm sahəsində ölkələrin inkişaf səviyyəsini müəyyən etmək digər sahələrlə müqayisədə bir qədər çətindir. Çünki bəzi istisnalar olmaqla buna dair əsaslı şəkildə göstəricilər tətbiq olunmayıb. 2015-ci ildən ölkəmizin ali təhsil müəssisələrində, BBMM tərəfindən isə xarici ölkələrin ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunması dövlətimiz tərəfindən bu siyasətin mühüm təzahürüdür. Fənnin tədrisi təkcə idraki xarakter daşımır, bunun çox böyük siyasi, praktik əhəmiyyəti var. Fənnin tədrisi tələbələri multikulturalizmlə bağlı məlumatlandırmaqla yanaşı, cəmiyyətdəki inteqrasiya proseslərinə də müsbət təsir göstərəcək. Bu sahədə "Multikulturalizmə giriş" dərsliyinin nəşr olunması böyük əhəmiyyət daşıyır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı multikultural, tolerant dəyərlərimizin öyrənilməsində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunmasının vacibliyini qeyd edib, bu sahədə "Multikulturalizmə giriş" dərsliyinin mükəmməl hazırlandığını diqqətə çatdırıb. Azərbaycanın dövlət-din modelinin bu gün bütün dünya ölkələri üçün örnək olduğunu vurğulayan Dövlət Komitəsinin sədri bildirib ki, hazırda müsəlman ölkələrində bu təcrübə geniş şəkildə öyrənilir.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, MDTF-in icraçı direktoru Mehman İsmayılov, BBMM-in icraçı direktoru Rəvan Həsənov, Azərbaycan Texnologiya Universitetinin müəllimi Əyyub Kərimov və treninq iştirakçısı, ADU-nun müəllimi Jalə Əsədova çıxış edərək Azərbaycan multikulturalizmi modelinin öyrənilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində "Multikulturalizmə giriş" dərsliyinin və "Azərbaycan multikulturalizmi" fənninin əhəmiyyətindən söz açıblar.

Tədbir çərçivəsində ölkənin müxtəlif universitetlərindən treninqdə iştirak etmiş 100-dən çox müəllimə sertifikat verilib.

# AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİ CƏMİYYƏTDƏ SOSİAL ƏDALƏTİN VƏ BƏRABƏRLİYİN BƏRQƏRAR OLMASININ ƏSAS AMİLLƏRİNDƏNDİR

Parisdə İnsan Hüquqları üzrə Milli Məsləhət Komissiyasının Baş qərargahında Fransanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRİ) 25-ci ildönümünə həsr olunan "Səmərəli bərabərliyə aparan yolda: irqçilik və dözümsüzlüyə yeni cavablara ehtiyac varmı?" mövzusunda konfrans keçirilib.

Yüksək rütbəli hökumət rəsmilərinin, nazirlərin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi konfransda Avropa Şurasına üzv olan ölkələrdə irqçilik və dözümsüzlüyün artmasında mövcud və yeni çağırışların qarşısının alınması məsələləri müzakirə olunub.



Konfransda ölkəmizi Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. O, "25 ildən sonra reallığa baxış: biz bərabərlik uğrunda aparılan mübarizədə uduruq yoxsa uduzuruq" adlı sessiyada çıxış edərək, Azərbaycanın timsalında inkluziv cəmiyyətin qurulmasına nail olmağın səmərəli vasitəsi kimi multikulturalizm siyasətinin əhəmiyyətindən danışıb.

E. Nəcəfov ölkəmizin təcrübəsinə əsaslanaraq bildirib ki, multikulturalizm siyasəti cəmiyyətdəki etnik, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinin ən uğurlu modelidir. Multikulturalizm siyasəti qloballaşma şəraitində geniş vüsət alan etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönəlib. Bu mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığı bir dövrdə olduqca önəmlidir. Belə bir şəraitdə insanların dünya görüşünün, fəaliyyətlərinin əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunması cəmiyyətin inkluzivliyini artıraraq onun daxilində inteqrasiya prosesləri üçün əlverişli şərait yaradır.

Şöbə müdiri multikulturalizmin Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətində özünü büruzə verdiyini qeyd edib. E. Nəcəfov bildirib ki, ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəsi və ölkədə yaşayan bütün xalqların və etnik qrupların etnik-mədəni dəyərlərinin qorunması multikulturalizim və daxili siyasətin tərkib hissəsi olmasının təzahürləridir. Qeyd edib ki, sosial ədalətə və bərabərliyə əsaslanan multikulturalizm siyasəti inkluziv cəmiyyətin formalaşmasına aparan əsas amillərdən biridir.

# "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR"

Sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Beyləqan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilib.

Beyləqan rayon Heydər Əliyev Mərkəzində baş tutan konfransda DQİDK və Beyləqan RİH-in rəhbər işçiləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak ediblər.



Əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi olub. Sonra ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi istiqamətində qarşıda duran vəzifələr, eyni zamanda tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Beyləqan RİH-in başçısı Asif Ağayev çıxış edərək rayondakı sabit dini durum barədə məlumat verib. Ölkəmizdə həyata keçirilən dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərin, tolerantlıq mühitinin qorunub saxlanmasından danışıb. Bildirib ki, respublikamızda məscid, kilsə və sinaqoqların bərpasına və yenilərinin inşasına xüsusi diqqət yetirilir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, dini maarifçilik işinin aparılması, dini radikalizm və xurafata qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən danışıb. Ölkəmizdəki nümunəvi dövlət-din münasibətlərindən söz açan M.Qurbanlı bildirib ki, Azərbaycan dünyəvi respublikadır. Dövlət dinin işinə qarışmır, din isə siyasiləşə bilməz. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin təməlində Azərbaycançılıq ideyası dayanır. Ulu Öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, dünyagörüşün, müdrik tövsiyələrin bu günün reallıqları kontekstində oynadığı müsbət rolu daha aydın görürük.



Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə böyük işlər həyata keçirildiyini deyən Komitə sədri əsas milli vəzifələrimizin Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi, sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması, təhlükəsizliyimizin həm ideoloji, həm də siyasi cəhətdən qorunması olduğunu diqqətə çatdırıb.

* * *

Konfrans işini sentyabrın 25-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.

Orta məktəblərin direktorları və direktorların təlim-tərbiyə işləri üzrə müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, ziyalılar və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Beyləqan RİH başçısının müavini Yeganə Məmmədova mövzunun əhəmiyyətindən danışıb. O, həmçinin rayondakı dini durum, eləcə də dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifləndirmə işinin düzgün metodlarla təşkili məsələlərindən danışıb. Onun sözlərinə görə, dini radikalizmlə mübarizənin gücləndirilməsi və milli-mənəvi dəyərlərin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işinin aparılması zəruridir.

Dinin siyasiləşməsi və məzhəbçilik kimi məsələlərə də toxunan sədr müavini qeyd edib ki, bu məsələlər dini radikalizm və xurafatdan heç də az təhlükə daşımır. Respublikamızda da dinin siyasiləşdirilməsinə və məzhəbçiliyin təbliğinə cəhdlər var, amma bu cəhdlərin perspektivi görünmür. Azərbaycan xalqının yüksək mədəniyyəti, milli-mənəvi dəyərlərə bağlılığı, dünyagörüşü və dövlətin apardığı siyasət buna imkan verə bilməz. İslam dininin bütün məzhəblərin fövqündə dayandığını vurğulayan G.İsmayılovun sözlərinə görə, məzhəb təəssübkeşliyi din təəssübkeşliyindən üstün olmamalıdır.

Dinimizin xurafata, cahilliyə və radikalizmə qarşı olduğunu diqqətə çatdıran DQİDK-nın sədr müavini deyib ki, bu kimi mənfi halların baş verməsinə səbəb dini bilgilərin yetərincə olmamasıdır.

Tədbirdə çıxış edən Beyləqan Rayon Təhsil Şöbəsinin müdiri Tahir Həsənov dini radikalizm və ekstremizmə qarşı maarifləndirmə metodunun effektivliyini xüsusi vurğulayaraq gənclərin düzgün dini bilgilərə yiyələnmələrinin vacibliyini iştirakçıların diqqətinə çatdırıb.

İkigünlük regional konfrans iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



**3 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Dünya Baptist Alyansı İttifaqının nümayəndələri ilə görüşüb.

Görüş zamanı DQİDK sədri Azərbaycandakı sabit dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı, o cümlədən tolerant və multikultural dəyərlərin təbliği sahəsində görülən işlər haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş nümunəvi dövlət-din münasibətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib.

M.Qurbanlı söhbət zamanı qonaqları Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasəti barədə də məlumatlandırıb, bütün beynəlxalq konvensiyaların şərtlərini pozaraq tarixi abidələrimizə qarşı törədilən cinayətlərə diqqət çəkib.

Dünya Baptist Alyansı adından BMT-nin Cenevrədəki daimi nümayəndəsi R.Şeyn Makneri Azərbaycanın nümunəvi tolerantlıq və multikulturalizm mühiti sərgiləməsindən məmnunluğunu ifadə edib, ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayandığını bildirib. Və vurğulayıb ki, beynəlxalq ictimaiyyət və dünyəvi dövlətlər bu yanaşmanı nümunə kimi qəbul etməlidirlər.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparılan görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

* * *

**4 sentyabr** - Azərbaycan Respublikasının Gənclər Fondunun elan etdiyi "Xaricdə magistr təhsilinin maliyyələşdirilməsi" müsabiqəsinin qalibləri ilə görüş keçirilib.



Gəncləri təbrik edən DQİDK sədri Mübariz Qurbanlı çıxışında Azərbaycanın, eyni zamanda müxtəlif ölkələrin dövlət-din modelləri, tolerant və multikultural dəyərlərimizin beynəlxalq aləmdə təbliği, Komitənin dini maarifləndirmə istiqamətində gördüyü işlər haqqında tələbələrə məlumat verib. Qeyd edib ki, Azərbaycan unitar, hüquqi, demokratik və dünyəvi dövlətdir. Dünyəvilik Konstitusiyada öz əksini tapıb və ölkədə dövlət-din münasibətləri yüksək səviyyədə təşkil olunub.

Sonda çıxış ətrafında müzakirələr aparılıb və gənclərin sualları cavablandırılıb, o cümlədən müsabiqə qaliblərinə DQİDK-nın ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri haqqında ingilis dilində nəşr etdirdiyi kitab təqdim edilib.

* * *

**9 sentyabr** – DQİDK sədrinin müavini Səyavuş Heydərov Denomniasiyalararası Xristian təşkilatının və Xristian Baytarlıq Missiyasının nümayəndə və könüllüləri ilə görüşüb.



Qonaqları salamlayan sədr müavini ölkəmizdəki dini durum barədə ətraflı məlumat verib və bildirib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi tanınır. Respublikamızda İslam və qeyri-islam dini icmalara fəaliyyətlərinin genişləndirilməsi, vicdan azadlığının təmin edilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir, maliyyə yardımı ayrılır.

S.Heydərov, eyni zamanda dünyada etnik və dini zəmində münaqişələrə bilərəkdən rəvac verildiyi, dini radikalizm və ekstremizm meyillərinin gücləndiyi bir dövrdə sülhə və sabitliyə nail olunmasında tolerantlıq prinsiplərinin təşviq edilməsinin əhəmiyyətinə toxunub.

Respublikamızda multikulturalizm və sivilizasiyalararası dialoq ideyasının təşviqi istiqamətində görülən işləri yüksək qiymətləndirən David Volfqanq Azərbaycanın multikulturalizm modelinin mükəmməl olduğunu qeyd edib.

* * *

**20 sentyabr** - DQİDK sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm və "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi Karl Qustav Severin ilə görüşüb.



Görüş zamanı DQİDK sədri qonaqlara ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, dinc birgəyaşayış ənənəsi, tolerantlıq siyasəti, eyni zamanda dini konfessiyalara göstərilən diqqət və qayğı barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı münasibətlər qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanır. Prezident İlham Əliyevin Azərbaycanda multikultural dəyərlərin qorunması və tolerant münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır.

Bu gün Azərbaycanda 24-ü xristian, 8-i yəhudi, 1-i krişna və 2-si bəhai olmaqla 35 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını qeyd edən Komitə sədri, eyni zamanda xristian icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Qeyri-islam dini qurumların fəaliyyətinə dövlət tərəfindən hərtərəfli dəstəyin göstərildiyini, icmalara mütəmadi maddi vəsaitlərin ayrıldığını diqqətə çatdıran M.Qurbanlı "Həyat sözü" Xristian dini icması ilə Dövlət Komitəsinin səmərəli və sıx əməkdaşlıq etdiyini xüsusi olaraq qeyd edib.

Ölkəmizə ilk dəfə 25 il öncə səfər etdiyini deyən Kristian Okerhelm həmin dövrdəki çətinliklərə baxmayaraq, hazırda Azərbaycanın çox dəyişildiyini, uğurlu iqtisadi inkişafa nail olduğunu bildirib. Ulu Öndər Heydər Əliyevlə görüşlərini xüsusi ehtiramla xatırladan qonaq respublikamızda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılmasını yüksək qiymətləndirib. Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün yaradılan azad və tolerant mühitə görə məmnunluğunu ifadə edib.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.



* * *

**25 sentyabr** - DQİDK sədri Mübariz Qurbanlı ABŞ-ın məşhur "John Batchelor Show" proqramının rəhbəri Con Batçeloru qəbul edib.

Dövlət Komitəsinin sədri xarici jurnalistin Azərbaycanın milli və dini tolerantlığın yüksək inkişaf mərhələsinə çatmasının səbəbləri, tolerantlığın təbliği və təşviqi yönündə görülən işlər, xalqımızın nümunəvi birgəyaşayış modeli, Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, eləcə də bu ilin 16-18 iyul tarixlərində Vaşinqtonda keçirilmiş Din Azadlığının İrəlilədilməsi üzrə 2-ci Nazirlər Konfransının mahiyyəti barədə suallarını cavablandırıb.

Komitə sədri bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin daha da möhkəmlənməsinə yönəlib.

Azərbaycan əhalisinin böyük hissəsinin İslam dininə mənsub olduğunu qeyd edən M.Qurbanlı respublikada dövlət qeydiyyatına alınan icmalardan 35-nin qeyri-islam təmayüllü olduğunu diqqətə çatdırıb və bildirib ki, ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub saxlamaq imkanına malikdir.

M.Qurbanlı, eyni zamanda Azərbaycanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət göstərdiyini, dünyanın 20-dən çox universitetində Azərbaycanın multikulturalizm modelinin fənn kimi tədris edildiyini, bu istiqamətdə müxtəlif ölkələrdə tədbirlərin keçirildiyini vurğulayıb.

Azərbaycandakı dinlərarası harmoniya, multikultural mühit barədə kifayət qədər məlumatlı olduğunu deyən Con Batçelor bildirib ki, səfərinin əsas məqsədi ölkəmiz haqqında daha geniş məlumat əldə etmək və bu informasiyaları ABŞ-da yaymaqdır.

"John Batchelor Show" proqramı dünyanın 100-dən artıq ölkəsində ingilisdilli auditoriya tərəfindən dinlənilir. Proqramın bir neçə milyonluq daimi dinləyicisi var. Veriliş 200-dən artıq radio tərəfindən təkrar yayımlanır.

Görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Beyləqan, sədrin birinci müavini Səyyad Salahlı Saatlı, sədr müavini Gündüz İsmayılov isə Sabirabad rayonunda vətəndaşları qəbul ediblər. Qəbuldan əvvəl Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin Beyləqan şəhərdə ucalan abidəsini ziyarət ediblər.

Beyləqan, Xocavənd, Saatlı, İmişli və Sabirabad rayonlarının sakinlərinin iştirak etdiyi qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müra-





ciətlərə baxılıb. Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# MÜBARİZ QURBANLI "KÖNÜLLÜMÜZ OL" LAYİHƏSİNİN İŞTİRAKÇILARINA SERTİFİKATLAR TƏQDİM EDİB



Sentyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində təcrübə keçmiş "Könüllümüz ol" layihəsinin iştirakçılarına sertifikatlar təqdim olunub.

Dövlət Komitəsi-nin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin gənc-lərin inkişafına yönələn dövlət siyasətini daim diqqət mərkəzində saxlamasından, bu istiqamətdə respublikamızda görülən işlərdən bəhs edib. O bildirib ki, dövlət başçısı tərəfindən dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub. Bu məqsədlə DQİDK tərəfindən 2 ay müddətində "Könüllümüz ol" layihəsinin reallaşdırıldığını, layihə iştirakçılarının Dövlət Komitəsinin gündəlik iş prosesində, tədbirlərin və konfransların təşkilində yaxından iştirak etdiklərini və təcrübi biliklərə yiyələndiklərini vurğulayan Komitə sədri bu fəaliyyətin gənclərin gələcək iş həyatlarına önəmli və effektiv təsir edəcəyini deyib.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gənclərə təbriklərini çatdıran Mübariz Qurbanlı onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

2 ay müddətində Dövlət Komitəsinin müxtəlif şöbələrində təcrübəli mütəxəssislərlə birbaşa çalışan, bu sahədə təcrübə toplayan könüllülər göstərilən etimada görə təşəkkürlərini bildiriblər.

Daha sonra könüllülərə sertifikatlar təqdim edilib və xatirə şəkli çəkilib.

## YƏHUDİLƏRİN ROŞ-HA-ŞANA BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA KONFRANS KEÇİRİLİB

Sentyabrın 26-da Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə yəhudilərin Roş-Ha-Şana bayramı münasibətilə "Tolerant Azərbaycan" mövzusunda konfrans keçirilib.

Konfrans yəhudilərin Azərbaycandakı fəaliyyətinə həsr edilib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov konfransda çıxış edərək bildirib ki, Fondun təşkilatçılığı ilə həyata keçirilən "Tolerant Azərbaycan" layihəsi çərçivəsində Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının və Alban-Udi Xristian dini icmasının ölkəmizdəki fəaliyyətinə həsr olunan konfranslar təşkil edilib. Bugünkü tədbir isə yəhudilərin Azərbaycandakı fəaliyyətinə həsr edilir.

M.İsmayılov qeyd edib ki, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin formalaşmasında və inkişafında yəhudi xalqının da özünəməxsus rolu var. Yəhudilərin Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il öncəyə gedib çıxır. Azərbaycanda yəhudilər əsasən Bakı, Sumqayıt şəhərlərində, həmçinin Quba və Oğuz rayonlarında məskunlaşıblar. Dünyada dağ yəhudilərinin kompakt şəkildə yaşadığı yeganə ərazi Quba rayonunda yerləşən Qırmızı qəsəbədir. Dünyada cərəyan edən bir sıra siyasi proseslərin fonunda deyə bilərik ki, yəhudilər özlərini ölkəmizdə tam təhlükəsiz hiss edirlər. Həm də ona görə ki, Azərbaycan onların vətənidir.



Yəhudi xalqının Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan danışan Bakı şəhəri dağ yəhudiləri dini icmasının sədri Melih Yevdayev bildirib: "Bizim qismətimizə qəribçilik yazılıb və biz bu qisməti qəbul etmişik. Lakin Azərbaycanda biz özümüzü qərib hiss etmirik. Harada Azərbaycan adını eşitsək ürəyimiz fərəhlə dolur. Biz hər yerdə azərbaycanlı olduğumuzu fəxrlə deyirik".

Daha sonra yəhudilərin Azərbaycandakı fəaliyyətinə həsr edilmiş film nümayiş olunub.

Yəhudiləri qarşıdan gələn Roş-Ha-Şana bayramı münasibətilə təbrik edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, bu tədbirdə müxtəlif dinlərdən olan nümayəndələrin, o cümlədən gənclərin iştirakı bugünkü tolerant Azərbaycanın kiçik bir şəklidir. İndiki mənzərəyə baxanda biz qürurlu, gələcəyimizin mənzərəsinə baxanda ümidliyik. Müsəlmanlar, yəhudilər, xristianlar, eləcə də digər dinlərin və xalqların nümayəndələri minilliklər boyu bu Vətənin təkcə torpağını, suyunu, çörəyini deyil, həm də taleyini paylaşıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski tarixboyu müxtəlif xalqların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildiriblər. Qeyd edilib ki, Azərbaycan dövləti bu tolerant mühitini qoruyur. Ölkəmizdə bütün dinlərə mənsub insanların rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Bütün dünyada ksenofobiyanın, islamofobiyanın hökm sürdüyü bir dövrdə Azərbaycanda sabitlik, əmin-amanlıq var.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"





**Cəlilabadda**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Cəlilabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə sentyabrın 5-6-da “Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik” mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Cəlilabad RİH başçısının birinci müavini Mansur Məmmədov mövzunun əhəmiyyətindən danışıb. M.Məmmədov Cəlilabaddakı dini durum barədə də məlumat verib və bildirib ki, rayon ərazisində dini durum sabitdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında milli-mənəvi, dini dəyərlərin cəmiyyətdə təbliğinin hansı əsaslar üzrə aparılması, son illərdə dövlətin geniş vüsət almış din siyasətinin müxtəlif vasitələrlə ictimaiyyətə çatdırılması yolları, dövlətçiliyin və milli-mənəvi irsin qorunması, eləcə də təbliğ edilməsi, eyni zamanda, dini maarifləndirmə işinin təşkili və aparılması sahəsində əldə edilən nailiyyətlər və qarşıda duran vəzifələrə toxunub.

Sədrin birinci müavini bildirib ki, son dövrlərdə baş verən hadisələr göstərdi ki, dini radikalizm aktuallığını itirməyib, əksinə, qlobal təhlükəli bəlaya çevrilib. Onun qarşısını almaq, təhlükənin azalmasına nail olmaq və inkişaf etməsi üçün şəraitin yaranmasına imkan verməmək hər bir ölkənin milli təhlükəsizliyinin təmin olunması baxımından mütləqdir. Dini radikalizmlə mübarizədə ən mühüm vasitə olan maarifləndirmə prosesində zəngin biliklərə malik din xadimlərinin də üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edən Komitə rəsmisi vurğulayıb ki, bu şəxslərin həm mövqeyi, həm də fikirləri doğru və mənalı olmalıdır. Bəşəriyyətin və cəmiyyətin maraqları nəzərə alınmalıdır ki, dindar insanlar yanlış yola yönəlməsinlər, dini ayrı-seçkliyə, ədavətə yol verməsinlər. Onun sözlərinə görə, nüfuzlu din xadimləri dinlər və mədəniyyətlərarası münasibətlərə həssas yanaşmalı, bu sahədə atdıqları addımların cəmiyyətin təhlükəsizliyi baxımından nə qədər böyük əhəmiyyət kəsb etdiyinin fərqinə varmalıdırlar. Onlara etibar olunan minbərin saxta ruhani kimliyinə malik şəxslərin əlinə keçməsinə imkan verməməlidirlər.

“Minbər tribunadır, onun ölkəmizin mənafeyini öz mənfəətlərinə qurban verməyə hazır olan, din pərdəsi adı altında gizlənən şəxslərin əlində alətə çevrilməsi yolverilməzdir. Çünki dinin siyasiləşməsi indiyədək heç bir cəmiyyətə xoşbəxtlik gətirməyib”, - deyə sədrin birinci müavini sözlərinə əlavə edib.

Tədbirdə zərərli dini cərəyanların əsas fəaliyyət metodlarına toxunulub. Cəlilabad RİH başçısının müavini Elnarə Həsənova, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Tural Vəlizadə, Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şəbəsinin müdiri Miryəhya Bədirov, QMİ-nin Cəlilabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Mahmud Əsgərov və başqalarının çıxışlarından sonra “Üfüqdəki gələcək” sənədli filmi nümayiş olunub.

**Ağcabədidə**

Bu qəbildən olan növbəti tədbir sentyabrın 26-27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağcabədi Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə baş tutub.

Dindarlar, hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov mövzunun əhəmiyyətindən danışıb. Natiq Ağcabədidəki dini durum barədə də məlumat verib və bildirib ki, rayon ərazisində dini durum sabitdir. RİH-in başçısı onu da vurğulayıb ki, bu gün Azərbaycan dünyada, o cümlədən İslam aləmində vəhdətin, həmrəyliyin gücləndirilməsinə mühüm töhfələr verir.




DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında bildirib ki, müstəqil respublikamızın qazandığı uğurlar, heç şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. Onun sözlərinə görə, ölkəmizdə bütün sahələrdə olduğu kimi, din sahəsində də problemlər aradan qaldırılıb, dövlət-din münasibətləri yeni mərhələyə qədəm qoyub. Səyyad Salahlı deyib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən dini sahəyə, dindarlara diqqət və qayğı göstərilir. Bu gün dövlət başçımızın tapşırığı və şəxsi nəzarəti ilə Azərbaycanda onlarla dini abidə yerləri dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilib. Dövlət Komitəsi sədrinin birinci müavini vurğulayıb ki, xalqımızın milli-mənəvi dəyərlərinin və çoxəsrlik adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində böyük işlər görülməkdədir.

Dini radikalizmə mübarizə, dini maarifləndirmə tədbirlərindən də danışan Səyyad Salahlı radikalizm və ekstremizmlə mübarizədə hər kəsi, o cümlədən din xadimlərini fəal olmağa çağırıb. Bildirib ki, bu işdə bütün cəmiyyət aktiv iştirak etməlidir. S.Salahlının sözlərinə görə, müasir dövrdə radikalizm dünya miqyasında narahatlığa səbəb olan problemlərdən biridir. Dini radikalizm azlıq təşkil edən din mənsublarına qarşı fiziki-mənəvi təzyiqlər başda olmaqla, din adına törədilən terror aktlarınadək müxtəlif formalarda özünü göstərir. Bəşəriyyətin “qarayara”sına çevrilən radikalizmi, o cümlədən dini radikalizmi tamamilə yox etmək imkansız olsa da, onun qarşısını almaq, təhlükənin minimum həddə qalmasına nail olmaq və inkişaf etməsi üçün şəraitin yaranmasına imkan verməmək hər bir ölkənin milli təhlükəsizliyinin təmin olunması baxımından mütləqdir. Bu baxımdan dini radikalizmlə mübarizədə ən mühüm vasitə maarifləndirmə hesab edilir.



Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Əhmədov, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Ramazan Hüseynov, Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev və başqaları çıxış edərək vurğulayıblar ki, milli və dini dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Qeyd olunub ki, bu dəyərlərin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

DQİDK-nın sifarişi ilə çəkilmiş “Üfüqdəki gələcək” sənədli filminin də nümayiş olunduğu ikigünlük seminar-müşavirə müzakirələrlə başa çatıb.

# "DİNİ MƏRASİMLƏR: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabunçu Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə sentyabrın 2-də "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.



Rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, İcra Hakimiyyətinin, bələdiyyələrin nümayəndələri, din xadimləri, dindarlar və gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Sabunçu RİH başçısının müavini Aftandil Hüseynzadə rayondakı dini durum barədə məlumat verib. Bildirib ki, Sabunçu rayonunda 10-a yaxın dini icma, 40-a yaxın məscid fəaliyyət göstərir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, İslam dəyərləri xalqımızın mənəvi varlığının ayrılmaz tərkib hissəsinə çevrilib. "Biz milli kimliyimizi hər şeydən üstün tutmalıyıq. Təəssüflər olsun ki, bəzi dini qruplar məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoyurlar", - deyən S.Heydərov İslamın əsas məqsədinin cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaq olduğunu diqqətə çatdırıb.

O qeyd edib ki, vətəndaşlar, xüsusilə gənclər yad ideyalardan qorunmaq üçün müvafiq icazəsi olmayan ədəbiyyatlardan və saxta dini təqvimlərdən istifadə etməməlidirlər. Həmçinin natiq din xadimlərini və dindarları dini ekstremizm və xurafata qarşı mübarizədə fəal olmağa çağırıb.

Milli Məclisin deputatı Fazil Mustafa isə çıxışında Dövlət Komitəsinin radikalizmlə mübarizə və dini maarifləndirmə istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib. İslamın elm və təhsilə böyük önəm verdiyini diqqətə çatdıran F.Mustafa vurğulayıb ki, İslam meydana çıxdığı gündən elmə böyük dəyər verib, elm öyrənməyi, təhsil almağı ibadət səviyyəsinə qədər yüksəldib: "Nə vaxt cəmiyyətdə xurafat yaranır? Cəmiyyətdə elm, təhsil, maarifçilik zəifləyir, məhz o zaman da xurafat və cahillik həmin cəmiyyətdə inkişaf etməyə başlayır",- deyə Milli Məclisin deputatı əlavə edib.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Musa Qasımov və başqaları da mövzu ilə bağlı fikirlərini səsləndiriblər.

## "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB




Sentyabrın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəmkir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda seminar-müşavirə keçirilib.

Şəmkir şəhər Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, RİH başçısı Alimpaşa Məmmədov, Şəmkir, Tovuz, Qazax, Ağstafa və Gədəbəy rayonlarının icra və hüquq-mühafizə orqanlarının səlahiyyətli nümayəndələri, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbər şəxsləri iştirak ediblər.

Tədbirin əvvəlində DQİDK-nın tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi əsasında çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" adlı sənədli film nümayiş olunub.

RİH başçısı Alimpaşa Məmmədov çıxışında ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətlərinin, dini sahədə sabitliyə nail olunmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib. Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini qeyd edən A.Məmmədov ölkəmizdə dini etiqad azadlığının təmin olunması üçün davamlı tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb və DQİDK-nın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

Tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, respublikamızın bütün bölgələrində təşkil olunan bu seminar-müşavirənin əsas məqsədi dünyada beynəlxalq təhlükəsizlik üçün ciddi təhdidə çevrilmiş dini radikalizm, ekstremizm, terrorizmin mahiyyəti və yaranma səbəbləri, həmçinin ona qarşı həyata keçirilmiş mübarizənin hüquqi əsasları haqqında məlumat verməkdir.

Qeyd edilib ki, müasir dünyada aparıcı güc mərkəzləri özlərinin geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün din, etiqad azadlığı və insan hüquqları anlayışından geniş istifadə edirlər. Beləliklə, din özünün əsas missiyasından uzaqlaşdırılaraq təhlükəli anlayışa çevrilir. Onun sözlərinə görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə tolerantlığın, multikulturalizmin, birgəyaşayışın nümunəvi formatı formalaşıb. Məhz bu anlayışların inkişafı dünyada sülhün və əmin-amanlığın qorunması üçün vacib şərtlərdəndir.

S.Heydərov Aşura mərasimləri ərəfəsində bölgələrdə keçirilmiş qanvermə aksiyalarını unikal nümunə kimi dəyərləndirib. Vurğulanıb ki, məhz bu cür təşəbbüslər İslam dininin ümumi fəlsəfəsini, onun humanist prinsiplərini əks etdirən ənənəyə çevrilib. Həmçinin bölgələrdə vəhdət namazlarının qılınmasının da İslam dinində birliyin yaradılması, məzhəbçiliyin aradan qaldırılması baxımından müsbət təşəbbüs və ənənə olduğu nəzərə çatdırılıb. Sədr müavini bildirib ki, məhz İslam dini əsrlərlə Azərbaycan xalqının ümumi keyfiyyətlərini, əxlaqını formalaşdıran, hər bir fərdi şəxsiyyətə çevirən əsas mənəviyyat mənbəyi olub.

Seminar-müşavirədə Daxili İşlər Nazirliyinin nümayəndəsi Oktay Tağıyev və Baş Prokurorluğun nümayəndəsi Bəhruz Kərimov dövlət-din münasibətlərinin tənzimlənməsində mövcud qanunvericiliyin tələbləri, hüquq mühafizə orqanları əməkdaşlarının vəzifələri, həmçinin ölkəmizdə dini radikalizmin, ekstremizmin və terrorizmin qarşısının alınmasında həyata keçirilmiş işlər haqqında məlumat veriblər.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## BAKI ŞƏHƏRİ "HƏYAT SÖZÜ" XRİSTİAN DİNİ İCMASI 25 İLLİYİNİ QEYD EDİB




Sentyabrın 22-də Bakı şəhəri "Həyat sözü" Xristian dini icmasının Azərbaycanda fəaliyyətə başlamasının 25 iliyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin rəhbərliyi, "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi, eyni zamanda icma rəhbəri və üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, xalqımızın öz tarixi köklərinə bağlılığı, milli-mənəvi dəyərlərinə sadiqliyi respublikamızın mövcud xətt üzrə dövlət siyasəti ilə tam bir vəhdət təşkil etməkdədir. Cəmiyyətimizdə digər dinlərin daşıyıcılarına münasibətdə tolerantlıq və birgəyaşayış vərdişləri bizim həyat prinsiplərimizin əsasında dayanır. Sədr müavini vurğulayıb ki, bu gün Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı təkcə ayrı-ayrı ölkələrdə deyil, bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəldilmiş nəzəriyyədir. Dünyada multikulturalizm anlayışının dəyərdən düşdüyü və öz effektivliyini itirdiyi barədə fikirlərin formalaşdığı bir dövrdə Azərbaycan multikulturalizmin alternativsiz bir anlayış olduğunu əyani şəkildə sübut etməkdədir. Ölkəmizdə multikulturalizm nəinki siyasi xətt kimi, eyni zamanda, milli keyfiyyət kimi də təqdim olunmaqdadır.

Respublikamızda dini icmalara dövlət tərəfindən göstərilən maddi və mənəvi dəstək barədə də danışan S.Heydərov "Həyat sözü" Xristian dini icmasının DQİDK ilə fəal əməkdaşlıq etdiyini bildirib və icmaya gələcək fəaliyyətində uğurlar arzulayıb.

"Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm çıxışında 1994-cü ildə Heydər Əliyevlə görüşünü, Ermənistanın təcavüzü nəticəsində öz yaşayış yerlərindən məcburən köçkün və qaçqın vəziyyətinə düşmüş Azərbaycan əhalisinə humanitar yardımın gətirilməsinin təşkilində şəxsən iştirak etdiyini xatırladıb. Ölkəmizin ötən illər ərzində bütün sahələrdə çox böyük inkişaf yolu keçdiyini bildirən K.Okerhelm dini sahəyə göstərilən diqqət və qayğını yüksək qiymətləndirib. O, müxtəlif dini qurumlara dövlət tərəfindən lazımi dəstək verilməsinin Azərbaycanın uğurlu multikulturalizm və tolerantlıq modelinin tərkib hissəsini təşkil etdiyini vurğulayıb. Bütün dini konfessiya nümayəndələrinə öz etnik-dini xüsusiyyətlərini və adət-ənənələrini qoruyub yaşatmağa görə yaradılan şəraitdən məmnunluğunu dilə gətirib.

Sonda tədbirin bədii hissəsi olub.

# “AŞURA MƏRASİMLƏRİ: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK”

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Abşeron Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə sentyabrın 2-də “Aşura mərasimləri: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.



Dini icma sədrləri, din xadimləri və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Abşeron RİH başçısının müavini Fuad Cəbrayılov keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunub. O, həmçinin rayondakı mövcud dini durum haqqında məlumat verib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov çıxışında bildirib ki, Azərbaycan və azərbaycanlılar üçün təkcə din yox, həm də mədəniyyət mənasını ifadə edən İslam bizim mövcudluğumuzu şərtləndirən və təsdiqləyən fakta çevrilib. Bu nöqteyi-nəzərdən təkcə onu demək kifayətdir ki, Azərbaycanın son 14 əsrlik tarixini, elmini, mədəniyyətini, ədəbiyyatını, məişətini və mənəviyyatını İslamsız təsəvvür etmək mümkün deyil. Milli dəyərlərimiz dini dəyərlərimizlə o qədər bütünləşib ki, onların sərhədlərini müəyyənləşdirmək nəinki çətindir, hətta mümkünsüzdür.

Sədr müavini qeyd edib ki, elmə, təhsilə, müasirliyə, dünyəviliyə, qadına, ailəyə yüksək dəyər verilməsi, məzhəbçilikdən uzaq olması Azərbaycanda ənənəvi İslamın xarakterik xüsusiyyətləridir və milli mənsubiyyətimiz, mədəniyyətimizlə bağlı hər şeyi inkar etmək və buna İslam prizmasından haqq qazandırmağa çalışmaq qəbuledilməzdir.

Bəzi maraqlı dairələrin öz təbliğatlarını milli kimliyimizin, hətta milli mədəniyyətimizin, adət-ənənələrimizin inkarı üzərində qurduğunu təəssüflə bildirən G.İsmayılov Aşura mərasimlərində hər hansı siyasi çıxışların olmaması, bu mərasimlərin siyasi alət kimi istifadə edilməməsi və dinimizin sırf mənəvi-ruhi nöqteyinəzərdən təbliğ edilməsinin vacibliyinə toxunub. Aşura mərasimlərində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) fətvasına, orada qeyd olunan tövsiyələrə əməl edilməsinin önəmindən bəhs edən DQİDK sədrinin müavini vurğulayıb ki, Məhərrəmlik mərasimləri qanun çərçivəsində keçirilməli, zəncir vurmaq, baş yarmaq kimi xalqımızın mədəniyyətinə və dinimizə uyğun olmayan əməllərə yol verilməməlidir.

Daha sonra çıxış edən QMİ-nin bölgə qazısı Rauf Sərdarov dövlətin dinə dəstəyindən danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın mütəmadi olaraq məscidləri, dini ibadət ocaqlarını ziyarət etməsi, dindarların problemləri ilə maraqlanması dinə dövlət qayğısının bariz nümunəsidir.

* * *

Eyni mövzuda daha bir tədbir sentyabrın 3-də DQİDK və Nizami RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

DQİDK və Nizami RİH-in rəhbər şəxsləri, dini icma sədrləri, din xadimləri və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan RİH başçısının müavini Gülnaz İsrafilova əvvəlcə rayondakı dini durum barədə məlumat verib. Bildirib ki, İslam dəyərlərinin öyrənilməsi və düzgün təbliğ olunması, bu sahədə maarifləndirmə işinin təşkilinin daha da gücləndirilməsi İslam dininə aid mərasimlərin keçirilməsi zamanı dinin tələblərinin yerinə yetirilməsi üçün olduqca əhəmiyyətlidir.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov bu cür tədbirlərin keçirilməsində əsas məqsədin cəmiyyətin dinlə bağlı düzgün məlumatlandırılması olduğunu deyib. O qeyd edib ki, ibadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslam vəhdət və qardaşlıq dini kimi xarakterizə olunur. Dinimizin əsas məqsədi həm də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır. Bu baxımdan dindarlar dini mərasimlərin təşkilinə həssas yanaşmalı, Aşura mərasimlərinə siyasi elementlər qatılması, başqa ölkələrə xas keçirilməsi cəhdlərinin qarşısını almalıdırlar.



“Aşura Vətənə, torpağa məhəbbət, dövlətə sədaqət ruhunda qurulan təbliğatlar, çağırışlarla müşayiət olunmalıdır”, - deyən sədr müavini din xadimlərini zəncir vurmaq, baş yarmaq kimi xalqımızın mədəniyyətinə və dinimizə uyğun olmayan əməllərin əleyhinə təbliğat aparmağa səsləyib.

Keşlə qəsəbəsi “Şah Abbas” Cümə məscidinin imamı Sirac Səfərov və Sahib-əz-Zaman məscidinin imamı Natiq İsayev çıxışlarında bildiriblər ki, ölkəmizdə tolerant, multikultural dəyərlər, həmçinin dinlərarası və məzhəblərarası həmrəylik münasibətləri hökm sürür. Dövlətin dinə dəstəyindən də danışan din xadimləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

* * *

Analoji seminar-müşavirə DQİDK və Sumqayıt ŞİH birgə təşkilatçılığı ilə sentyabrın 4-də baş tutub. Tədbirdə DQİDK və Sumqayıt ŞİH-in rəhbər şəxsləri, dini icma sədrləri, din xadimləri və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.



Seminar-müşavirəni giriş sözü ilə açan Sumqayıt ŞİH başçısının birinci müavini Teymur Səmədov əvvəlcə şəhərdəki dini durum barədə məlumat verərək bildirib ki, milli-mənəvi və dini dəyərlərimizin təbliği dövlətimizin siyasətində mühüm istiqamətlərdən biridir. İslam dininə aid mərasimlərin keçirilməsinə xüsusi önəm verildiyini vurğulayan T.Səmədov Məhərrəm ayı ərəfəsində, eləcə də Aşura günündə keçiriləcək əzadarlıq məclisləri və mərasimlərinin təşkilatçılığı üçün qərargah yaradıldığını söyləyib.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, əvvəlki illərdən fərqli olaraq, zaman keçdikcə vətəndaşlarımız Məhərrəm ayı, Aşura mərasimi ilə bağlı daha obyektiv məlumat almaq imkanı əldə edirlər. Getdikcə xurafat halları azalmaqdadır. Əvvəlki illərdən fərqli olaraq, aparılmış maarifləndirmə işləri nəticəsində başyarma, qançıxarma və zəncirvurma kimi xoşagəlməz halların azaldığının müşahidə edildiyini deyən G.İsmayılov buna mütəmadi olaraq maarifləndirmə tədbirlərinin aparılması nəticəsində nail olunduğunu söyləyib.

Daha sonra çıxış edən QMİ-nin bölgə qazısı Rauf Sərdarov dövlətin dinə dəstəyindən danışıb. O bildirib ki, bu gün ölkəmizdə dinlərarası münasibətlər yüksək səviyyədədir və Prezident İlham Əliyevin qayğısı sayəsində Azərbaycanda yeni məscidlər tikilir, dini abidələrimiz bərpa olunur, dindarlara dövlət tərəfindən xüsusi qayğı göstərilir.

Daxili İşlər Nazirliyi Sumqayıt Şəhər Polis İdarəsinin rəis müavini Hikmət Qasımov və Dövlət Təhlükəsizliyi Xidmətinin Sumqayıt şəhər idarəsinin nümayəndəsi Natiq Səmədov çıxış edərək dini ekstremizm və radikalizmə qarşı mübarizənin hüquqi əsasları haqqında danışıblar.

Seminar-müşavirələr öz işini müzakirələrlə yekunlaşdırıblar.

# ŞİRVANDA "DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL" MÖVZUSU MÜZAKİRƏ EDİLİB

Sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şirvan Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə “Dünyəvi dövlətdə din və təhsil” mövzusunda konfrans keçirilib.

Konfransda Şirvan şəhəri üzrə məktəb direktorları, onların təlim-tərbiyə işləri üzrə müavinləri, məktəb psixoloqları, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər iştirak ediblər.

Şirvan ŞİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər üzrə şöbənin müdiri Elmira Ağayeva DQİDK tərəfindən keçirilən bu cür maarifləndirici tədbirlərin əhəmiyyətinə toxunub. Eyni zamanda vurğulayıb ki, əxlaq, mənəviyyat, millimənəvi dəyərlərə hörmət hər bir insanda uşaq yaşlarından formalaşdırılmalıdır və elə bu istiqamətdə “Həyat bilgisi” fənni daxilində dini biliklərin tədrisi ən münasib üsullardandır.



DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, bütün dövrlərdə dinin siyasiləşdirilməsinə, dövlətlərin onu bir-birinə qarşı silah alətinə çevirməsinə cəhdlər göstərilib. Din müxtəlif vaxtlarda hansısa dövlətlərin və qüvvələrin dayaq nöqtəsi, uğurunun təminatçısı kimi çıxış edib. Lakin heç zaman dini məsələ indiki qədər siyasiləşib, bəşəriyyətin “kabus”una çevrilməyib. Dinin siyasiləşdirilməsinin fəsadlarına toxunan sədr müavini vurğulayıb ki, cəmiyyət zərərli dini cərəyanlara qarşı intensiv maarifləndirilmirsə, ona lazımi dini biliklər sistemli şəkildə verilmirsə, deməli, onun hansısa qeyri-ənənəvi təriqətə qoşulması ehtimalı hələ də qalır. G.İsmayılovun sözlərinə görə, bu səbəbdən cəmiyyətin bütün təbəqələrini və fərdlərini əhatə edən maarifləndirmə tədbirləri intensiv təşkil edilir.

“Həyat bilgisi” fənni çərçivəsində dini biliklərin verilməsinin əhəmiyyəti barədə də danışan sədr müavini diqqətə çatdırıb ki, orta məktəbdə dini biliklərin verilməsi həm şagirdlərin mənəvi tərbiyəsi üçün faydalıdır, həm də gələcəkdə dini bilgilərin təsadüfi adamlardan öyrənilməsinin qarşısını almış olur.

Sonda sədr müavini tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

# "DİNŞÜNASLIQ EKSPERTİZASI: HÜQUQ VƏ TƏCRÜBƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Sentyabr ayının 23-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dinşünaslıq ekspertizası: hüquq və təcrübə" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) rəhbərliyi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi, ölkəmizdə fəaliyyət göstərən nəşriyyatların nümayəndələri və din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsinin mütəmadi olaraq dini təyinatlı ədəbiyyatların nəşri ilə məşğul olan nəşriyyat sahibləri ilə görüşlər keçirdiyini, respublikada bu sahədə mövcud olan vəziyyətə dair müzakirələrin və fikir mübadiləsinin aparıldığını bildirib. Ölkədə dini ədəbiyyatların nəşri prosesində zərərli ədəbiyyatlara çox nadir hallarda rast gəlindiyinə diqqət çəkən Komitə rəsmisi deyib ki, bunun əsas səbəbi nəşriyyatlarla, müəlliflərlə yaxından əməkdaşlıq edilməsi və bu məsələlərdə onların hüquqi meyarları demək olar ki, mənimsəmələridir. Bu baxımdan ölkədə nəşr olunan ədəbiyyatların mütləq əksəriyyətində zərərli məqamlar olmur. Bu cür ədəbiyyatlar ölkəyə daha çox xaricdən idxal olunur ki, bu sahəyə də ciddi nəzarət edilir.

Daha sonra DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov təqdimatla çıxış edib. O bildirib ki, dinşünaslıq ekspertizası birbaşa ictimai maraqları təmin edir, Dövlət Komitəsinin hüquqlarında da təsbit olunduğu kimi dini təyinatlı ədəbiyyatın, əşyaların, dini məzmunlu başqa məlumat materiallarının istehsalı, idxalı və yayılmasına nəzarət etmək, dini qurumların və müvafiq dövlət orqanlarının müraciətlərinə əsasən qanunvericilikdə nəzərdə tutulmuş qaydada razılıq vermək kimi səlahiyyətləri var. N.Məmmədov beynəlxalq hüquq və təcrübədən nümunələr gətirməklə dini ədəbiyyatların müvafiq qaydada yoxlama prosesindən keçərək çap edildiyini və yayıldığını vurğulayıb. O qeyd edib ki, təqdim olunan ədəbiyyat insanpərvərlik prinsiplərinə zidd deyilsə, dini nifrət və düşmənçiliyə rəvac verəcək, dinlər və məzhəblərarası münasibətlərə xələl gətirəcək fikirlər yer almırsa, ölkəmizdəki mövcud dini duruma, tolerant və multikultural mühitə mənfi təsir göstərəcək ifadələr əks olunmursa, bu kitabın ölkə ərazisində çapına və yayılmasına heç bir qadağa yoxdur. N.Məmmədov vətəndaşlarımızın sağlam dini ədəbiyyatla təmin edilməsi ilə yanaşı, piratçılığın, vergi hüquqpozmalarının qarşısını alan, əqli mülkiyyət hüquqlarının qorunmasında da faydalı olan dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarının nəzarət markaları ilə markalanması prosesinin qısa zaman ərzində çox effektiv nəticələrə gətirib çıxardığını bildirib. Üzərində nəzarət markası olan dini təyinatlı ədəbiyyat oxucusunda etibar, güvən formalaşdırır. Hər bir vətəndaş üzərində müvafiq marka olan dini ədəbiyyatı oxuyur, ona təklif olunan digər ədəbiyyatdan isə imtina edir. Bu da o deməkdir ki, vətəndaşımız kitabın içini bilmədən də nəzarət markası sayəsində onun mətninin zərərli olub-olmadığını müəyyən edə bilir.

Şöbə müdiri 2017-2019-cu illər ərzində Dövlət Komitəsinə dini təyinatlı ədəbiyyatların çapı və ölkəyə idxalı ilə bağlı daxil olan müraciətlərin statistikasını da nəzərə çatdırıb. 2017-ci ildə Dövlət Komitəsinə kitab idxalı ilə bağlı ümumilikdə 1603 müraciət daxil olub ki, onun 1540-nın ölkəyə gətirilməsinə icazə verilib, 63 kitabın ölkəyə idxalına icazə verilməyib. 210 dini təyinatlı ədəbiyyatın ölkədə nəşrinə icazə verildiyi halda isə nəşrinə icazə verilməyən kitabların sayı 4 olub. 2018-ci ildə isə ölkəyə dini təyinatlı ədəbiyyatın idxalı ilə bağlı ümumilikdə 1704 müraciət olub. 1652 kitabın idxalına icazə verilib, 52 adda kitabın isə idxalı qadağan edilib. Həmçinin 171 dini təyinatlı ədəbiyyatın nəşrinə icazə verilib, 26 adda kitabın isə nəşri məqbul hesab edilməyib. N.Məmmədov eyni zamanda, 2019-cu ilin yanvar-sentyabr aylarının statistik məlumatlarını açıqlayıb. Bildirib ki, ümumilikdə kitab idxalı ilə bağlı 2412 müraciətə baxılıb. Onlardan 2254-nə müsbət, 158-nə isə mənfi cavab verilib. Kitab nəşri prosesində isə 175 kitabın nəşrinə icazə verildiyi halda 17 kitabın nəşri məqsədəuyğun hesab edilməyib.

QMİ-nin Aparat rəhbəri Simran Həsənov qeyd edib ki, müasir dövrdə dövlət-din münasibətlərinin Azərbaycan modelində, demək olar ki, bütün ziddiyyətli məqamlar aradan qaldırılıb. QMİ müsəlman dini icması kimi daima dövlətin, cənab Prezidentin, eyni zamanda DQİDK-nın diqqət və qayğısını öz üzərində hiss edir. Dinşünaslıq ekspertizasının tətbiqinin təkcə zərərli dini ədəbiyyatı məhdudlaşdırmaqla kifayətlənmədiyini qeyd edən Aparat rəhbəri bunun, əslində, dindarları qanuna zidd hərəkət etməkdən çəkindirdiyini, gələcəkdə cəlb oluna biləcəkləri inzibati və ya cinayət məsuliyyətinin vaxtında qarşısını aldığını deyib.

MDTF-nin icraçı direktorunun müavini Ceyhun Əliyev bildirib ki, ötən illərə nisbətən son dövrlərdə ölkəmizdə yerli dini ədəbiyyatın nəşri artmaqdadır. MDTF-nin özünün təsis nizamnaməsinə uyğun olaraq nəşr etdirdiyi ədəbiyyatlar arasında dinşünaslıq ekspertizası tərəfindən müvafiq rəy verilmiş dini kitablar da yer alır. Ceyhun Əliyev Fond tərəfindən çap olunan ədəbiyyatların milli maraqlarımıza, mənəvi dəyərlərimizə uyğun olmasına, müasir dövrün tələblərinə cavab verməsinə, eyni zamanda xurafat elementlərindən uzaq olmasına xüsusi diqqət yetirildiyini qeyd edib.

Tarix üzrə fəlsəfə doktoru Abbas Qurbanov da mövzu barədə fikirlərini bölüşüb.

Konfrans dinşünaslıq ekspertizası sahəsində, eləcə də dini təyinatlı ədəbiyyatın yayılmasına nəzarətin həyata keçirilməsi istiqamətində görülmüş işlər barədə müzakirələr və fikir mübadiləsi ilə öz işini yekunlaşdırıb.

# DÖVLƏT KOMİTƏSİNİN RƏSMİSİ ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSUNUN İCLASINDA ÇIXIŞ EDİB




Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunmuş yekun iclası keçirilib.

Sözügedən tədbirin "Tolerantlıq və qeyri-ayrı-seçkilik. Milli azlıqlara mənsub olan şəxslərin hüquqları" mövzusuna həsr olunmuş 14-15-ci sessiyasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev "Nifrət zəminli cinayətlər" panelində çıxış edib, tədbir iştirakçılarına mövzu ilə bağlı geniş məlumat verib.

O bildirib ki, Azərbaycan müsəlman, xristian və yəhudilərin yüzillər, hətta min illər boyu digərləri ilə birgə, sülh və əmin-amanlıq şəraitində yaşadığı və inkişaf etdiyi dünyəvi dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin bu ənənələrin gücləndirilməsi, dini icmaların fəaliyyətlərinin genişləndirilməsi və tərəqqisi istiqamətində ardıcıl siyasət apardığını bildirən Komitə rəsmisi dövlətimiz tərəfindən bütün dini qurumlara onların ibadət yerlərinin tikintisi və idarə edilməsi məqsədilə büdcədən hər il maliyyə yardımı ayrıldığını diqqətə çatdırıb. O qeyd edib ki, son 10 ildə Azərbaycanda qeydiyyatdan keçmiş dini icmaların ümumi sayı 942-ə çatıb ki, burada qeydiyyatdan keçmiş xristian dini icmaların sayı üç dəfə artıb.

Əhalisinin əksəriyyətinin müsəlman olduğu və fərqli mədəniyyətə qarşı nifrətin qeydə alınmadığı Azərbaycan beynəlxalq müstəvidə Qərb və Şərq dünyasının eyni zamanda etibarlı tərəfdaşı olduğunu və dinlərarası dialoqun inkişafına töhfə verən tədbirlərə ev sahibliyi edə bildiyini göstərib. Cari ilin 14-15 noyabr tarixlərində ölkəmizdə təşkil olunacaq "Dünya dini liderlərinin II Bakı sammiti"nə diqqət çəkən Ə.Həziyev bildirib ki, bu sammitdə ümumi problemlərin müzakirə edilməsi, qarşılıqlı anlaşmanın artırılması, dini radikalizm və ekstremizmə qarşı mübarizəyə öz töhfəsini vermək məqsədilə dünyanın hər yerindən yüzlərlə dini lider təşrif buyuracaq.

Komitə rəsmisi tarixi Azərbaycan torpaqlarının 20 faizindən çoxunun monoetnik ölkə olan və təcavüzkar siyasət yürüdən Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan artıq azərbaycanlının öz torpaqlarından qovulmasına, minlərlə soydaşımızın terrora məruz qalmasına baxmayaraq, ölkəmizdə yaşayan ermənilərə qarşı heç bir ayrı-seçkiliyə yol verilmədiyini qeyd edib. O bildirib ki, qədim Azərbaycan torpaqlarında, o cümlədən işğal altında olan Dağlıq Qarabağda və ətraf 7 rayonda Ermənistan silahlı birləşmələri tərəfindən məhv edilən çoxsaylı dini, mədəni və tarixi abidələrimizdən 367-si tarixi abidə, 67-si məscid, 140-ı ziyarətgah, 140-ı isə məbəddir. Bunlar erməni işğalçıları tərəfindən dağıdılıb, məhv edilib və Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbə vurulub. Buna baxmayaraq, Bakının mərkəzində yerləşən erməni kilsəsi Azərbaycan dövləti tərəfindən mühafizə edilir. Qeyd olunan faktların özü Azərbaycan dövləti və xalqının yüksək tolerant və multikultural mənəviyyatının bariz sübutudur.

# “QADIN HÜQUQLARININ QORUNMASINDA DİNİ İCMALARIN YERİ VƏ ROLU”



Sentyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə “Qadın hüquqlarının qorunmasında dini icmaların yeri və rolu” mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK və AQUPDK-nın təmsilçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi, din xadimləri, qadın təşkilatlarının rəhbərləri, həmçinin, ictimaiyyət fəalları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva təmsil etdiyi qurumun həyata keçirdiyi maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunub. Dövlət Komitəsi tərəfindən tolerantlıq mühitinin qorunması, müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı hörmət, birgəyaşayış, dözümlülük mühitinin möhkəmlənməsi, eyni zamanda dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrıseçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində müxtəlif səpkili tədbirlərin təşkil edildiyini diqqətə çatdırıb. Komitənin təşkilatçılığı ilə təkcə bu ilin birinci yarısında 250-dən çox tədbirin keçirildiyini vurğulayan şöbə müdiri bu istiqamətdə aidiyyəti orqanlarla uğurlu əməkdaşlıq edildiyini nəzərə çatdırıb. Y.Əliyeva qadın hüquqlarının qorunması, dini maarifləndirmə prosesində qadınların aktivliyinin təmin edilməsi ilə də bağlı bölgələrdə silsilə konfransların təşkil olunduğunu bildirib.

AQUPDK-nın Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova çıxışında qadın hüquqlarının pozulması ilə bağlı faktlara toxunub. Bildirib ki, insan hüquqlarının qorunması, xüsusilə bu hüquqlar çərçivəsində qadın hərəkatının inkişafı və azadlıqlarının təmin olunması istiqamətində qanunvericilik bazası genişləndirilib, cəmiyyətin müxtəlif sferalarında qadınların rolunun artırılması yolunda işlər görülür, gender bərabərliyi mövzusunda müzakirələr aparılır. Onun sözlərinə görə, bütün bunlara baxmayaraq cəmiyyətdə erkən nikah, qızların təhsildən yayınması kimi mənfi təzahürlərə rast gəlinir. Şöbə müdiri bu kimi hallarla mübarizədə din xadimlərinin üzərinə də böyük məsuliyyət düşdüyünü qeyd edib.

Daha sonra “Qadın haqları və dini icmalar” mövzusunda təqdimatla çıxış edən DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova İslamın qadına qazandırdığı hüquq və azadlıqlar, İslamda qadınların təhsil və tədrisinin əhəmiyyəti, qadın haqlarının qorunması məqsədilə dini icmaların üzərinə düşən vəzifələr kimi vacib məqamlardan danışıb. Bildirib ki, Azərbaycan qadınının cəmiyyətdə rolunun bundan sonra da yüksəldilməsi, milli adət-ənənələr əsasında tərbiyə almış Azərbaycan qadınının millilik və müasirliyin vəhdətində öz mövqeyini gücləndirməsi çox vacib amildir. Ölkəmizdə qadının sosial-siyasi həyatda fəal iştirakının reallaşdırılması və davamlılığının təmin edilməsi üçün ilk növbədə ailədə və cəmiyyətdə maarifləndirmə işləri aparılmalı, qadınları əzən, onları cəmiyyətdən təcrid edən stereotiplər və bu cür əxlaq normaları aradan qaldırılmalıdır. Bu məqsədlə cəmiyyətdə dini maarifləndirmənin, xüsusilə İslamda ailə dəyərləri, qadının mövqeyi, ona verilən dəyər mövzusunda təbliğatın aparılması çox vacibdir. Şöbə müdiri vurğulayıb ki, qadının təhsilli olması, öz hüquqlarını bilməsi, düzgün dini bilgilərə malik olması, milli-mənəvi dəyərlərimizə bağlılığı bir ailənin, cəmiyyətin sağlam gələcəyi deməkdir.

AQUPDK-nın İnformasiya və Sosial Analitik Araşdırmalar şöbəsinin müdir müavini Aynur Veysəlova isə təqdimatında qadın hüquqlarının pozulmasında din adından sui-istifadə edilməsi kimi mənfi təzahürlər barədə danışıb. Bildirib ki, İslamda elm öyrənmək, təhsil almaq kişi və qadın fərqi qoyulmadan bütün müsəlmanlara vacib buyurulub. Bütün bunlardan sonra dünyəvi təhsilə qarşı çıxmaq, övladını məktəbdən uzaqlaşdırmaq, onu erkən nikaha sövq etmək xurafatın, cahilliyin ilkin formasıdır.

QMİ-nin sədr müavini Qəmər Cavadlı dini icmaların qadın hüquqlarının qorunmasındakı rolu və din xadimlərinin üzərlərinə düşən missiyanı uğurla həyata keçirməsi barədə danışıb. Eyni zamanda Azərbaycanda 4 icma rəhbərinin qadın olduğunu vurğulayan sədr müavini “Şəbnəm” Qızlar İslam Kollecinin Azərbaycanda qızlara ayrıca dini təhsil verən yeganə təhsil müəssisəsi olduğunu deyib.

Daha sonra Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Səbinə Mirzəyeva, AMEA-nın Qadınlar Şurası “Sosioloji iş və Analitika” işçi qrupunun rəhbəri, AMEA Fəlsəfə İnstitutunun “Müasir fəlsəfə problemləri” şöbəsinin elmi işçisi Mahrux Nəcəfli və Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin nümayəndəsi Əntiqə Qurbanova mövzu barədə fikirlərini bölüşüblər.

Tədbir qadın hüquqlarının qorunması, düzgün gender siyasətinin həyata keçirilməsi baxımından dini icmaların yeri və rolu barədə müzakirələrlə öz işini yekunlaşdırıb.

# “DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: NECƏ VƏ NƏ ETMƏLİ?”



Sentyabrın 23-ü və 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Balakən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini radikalizmlə mübarizə: necə və nə etməli?” mövzusunda seminar-treninq keçirilib.

Balakən rayon Qabaqçöl qəsəbəsində keçirilən seminar-treninqdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, DQİDK-nın məsul əməkdaşı Tərxan Paşazadə, Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri İlqar Vəliyev, Balakən RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Fariz Nəcəfov, qəsəbə ictimaiyyətinin nümayəndələri, dini icma sədrləri, din xadimləri, müəllimlər və şagirdlər iştirak ediblər.

Seminar-treninqdə keçirilən tədbirlərin önəminə toxunulub, dini radikalizm və onun törətdiyi fəsadlar, dini radikalizmin yayılmasına qarşı mübarizə yolları barədə məlumat verilib. İştirakçıların sualları cavablandırılıb və din xadimlərinin fikirləri dinlənilib.

# MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Avqustun 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə birgə Sumqayıt şəhərində yerləşən dini təyinatlı ədəbiyyatın, habelə mal və məmulatların satışı ilə məşğul olan 2 mağazada reyd keçirib.

Monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

Keçirilən reydlər zamanı Sumqayıt şəhəri 17-ci və 5-ci mikrorayonlar ərazisində yerləşən “Fatimə” dini mağazalarına ixtisaslaşdırılmış satış məntəqəsi kimi fəaliyyətinə müvafiq icazənin verilməməsi aşkar olunub və qeyri-qanuni formada satışın həyata keçirdikləri dini təyinatlı mal və məmulatlar müəyyən edilərək hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

Qeydə alınmış qanun pozuntularının hüquq-mühafizə orqanları ilə birlikdə araşdırılması davam etdirilir.

# Cəzaçəkmə müəssisələrində məhkumların maarifləndirilməsi işi davam edir

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi arasında təsdiq edilmiş birgə tədbirlər planına əsasən, 4 saylı cəzaçəkmə müəssisəsində və Tərbiyə müəssisəsində “Radikal dini qurumların psixoloji təsir metodları” və “Əxlaq: yaxşılığa dəvət edib pis əməllərdən çəkindirmə” mövzularında seminar treninqlər təşkil olunub.

Məhkumların maarifləndirilməsi, onlara müsbət əxlaqi dəyərlərin aşılanması, mənəvi kamilləşdirilməsi və sosial reinteqrasiya prosesinin gücləndirilməsi məqsədilə təşkil edilmiş tədbirlərdə ekspertlər tərəfindən mövzular ətrafında çıxışlar edilib, məhkumları maraqlandıran suallar cavablandırılıb.

# AİI-DƏ "TÜRK DÜNYASININ GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİMİ – ƏHMƏD BƏY AĞAOĞLU" MÖVZUSUNDA ELMİ KONFRANS KEÇİRİLİB

Böyük mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi ilə əlaqədar olaraq, Azərbaycan İlahiyyat İnstitutu (AİI), Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Türk Ocaqları İstanbul şöbəsi, İstanbul Universiteti Türkiyat Araşdırmaları İnstitutunun birgə təşkilatçılığı ilə sentyabrın 19-20-də "Türk dünyasının görkəmli ictimai-siyasi xadimi – Əhməd bəy Ağaoğlu" mövzusunda ikigünlük elmi konfrans keçirilib.



Öncə tədbirdə Azərbaycan Respublikası və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib.

AİI rektoru ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov konfrans iştirakçılarını salamlayaraq bildirib ki, bu il Azərbaycan ictimai fikrinin böyük nümayəndələrindən biri, görkəmli publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyi tamam olur: "Bununla əlaqədar, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10 aprel 2019-cu il tarixdə "Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında" 1109 nömrəli Sərəncam imzalamış və Azərbaycan Respublikası Təhsil Nazirliyi 3 iyul 2019-cu il tarixdə qeyd olunan Sərəncamın icrası ilə əlaqədar Tədbirlər Planını təsdiq etmişdir."

AİI rektoru bildirib ki, Respublika Prezidenti cənab İlham Əliyevin Azərbaycan ictimai fikir tarixində dərin iz qoymuş mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə imzaladığı Sərəncam dövlətimiz tərəfindən Türk dünyasının görkəmli ictimai-siyasi xadiminə verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisidir.

AİI rektoru vurğulayıb ki, ölkə başçısı cənab İlham Əliyevin Sərəncamının icrası ilə əlaqədar keçirilən tədbir Türk dünyasının görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun həyat yolu və əsərləri ilə yaxından tanışlıq, ədəbi fəaliyyətinin yeni, maraqlı səhifələrini öyrənmək baxımından xüsusi əhəmiyyət daşıyır.

İstanbul Universiteti Türkiyat Araşdırmaları İnstitutunun müdiri Mustafa Balcı görkəmli ictimai xadim Əhməd bəy Ağaoğlunun təkcə Azərbaycanda yox, Türkiyədə, Yaxın və Orta Şərqdə, Mərkəzi Rusiya və Qərbi Avropada da tanınmış alimlərdən olduğunu qeyd edib. M.Balcı dahi mütəfəkkirin insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini özündə toplamış böyük insan olduğunu vurğulayıb.

Türk Ocaqları İstanbul şöbəsinin müdiri Cezmi Bayram qeyd edib ki, Əhməd bəy bütün həyatı boyunca çəkdiyi əzablara, əziyyətlərə, sürgünlərə, məhrumiyyətlərə baxmayaraq, sözünü çəkinmədən demiş, xalqının və böyük Türk dünyasının mənafeyi uğrunda hər zaman mübarizə aparmışdır. Böyük sənətkarın yaradıcılığı və fəaliyyəti çoxtərəfli, çoxjanrlı, sistemli şəkildə davam etmiş, son nəfəsinədək xalqına, millətinə, mədəniyyətinə bağlı olduğunu göstərmişdir.

Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoral iki qardaş ölkənin ortaq dəyərlərindən biri olan Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinə həsr olunmuş konfransın keçirilməsinin təqdirəlayiq hal olduğunu vurğulayıb. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafının böyük əhəmiyyətə malik olduğunu, tarixi köklərə söykəndiyini, eyni millətə, eyni dilə, eyni dinə sahib olan iki xalq arasındakı qardaşlıq münasibətlərinin əsrlər boyu yaşadığını və bu əlaqələrin hazırda daha da zənginləşdiyini, yeni səviyyəyə yüksəldiyini bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu il "Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamasını böyük ədibə ehtiramın təcəssümü kimi dəyərləndirib. G.İsmayılov Əhməd bəyin əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsil səviyyəsi ilə ölçüldüyünü vurğulayıb. O qeyd edib ki, görkəmli ictimai xadim və yazıçı, publisist Əhməd bəy Ağaoğlu Azərbaycanın milli istiqlalı uğrunda mübarizənin ön cərgəsində duran ziyalılarımızdan biri olub.

Konfrans mövzu ətrafında məruzələrlə davam etdirilib.

# DÜNYADA DAĞ YƏHUDİLƏRİNİN İLK MUZEYİ AZƏRBAYCANDA YARADILIR



Quba rayonundakı Qırmızı qəsəbədə dünyada ilk dağ yəhudiləri muzeyinin açılışına hazırlıq işləri görülür. Bu kulturologiya layihəsinin ideoloqları və sərmayədarları moskvalı iş adamları, "Kiyevskaya ploşad" şirkətlər qrupunun sahibləri Qod Nisanov və Zarah İliyev, həmçinin STMEQİ xeyriyyə fondudur. Qırmızı qəsəbənin yetirmələri olan mesenatlar Rusiyada çoxdan yaşamalarına və fəaliyyət göstərmələrinə baxmayaraq öz kiçik vətənlərini də unutmurlar və qəsəbəyə hərtərəfli yardım göstərirlər. Məişət əşyalarının, milli geyimlərin, kitabların, dağ icmasının tarix və ənənələrinin qorunacağı muzeyin yaradılması ideyası bir neçə il bundan öncə meydana gəlib. 2017-ci ildə onun həyata keçirilməsinə başlanılıb. Muzey üçün binanın qəsəbədə olan 7 sinaqoqdan biri – Karhoq sinaqoqunun seçilməsi rəmzi məna daşıyır. Bu ibadət yeri sovet hakimiyyəti dövründə ərzaq anbarı kimi istifadə olunub. Sərmayəçilər qərara gəliblər ki, muzeyin əsas eksponatı elə sinaqoqun binası olmalıdır. O, ilkin eskizlərə uyğun olaraq bərpa edilib.

Bina 5 metrdən yüksək olan otaq hündürlüyündə və kvadrat formasındadır. Daxilində mümkün qədər daha çox eksponatın yerləşdirilməsi üçün bina iki yarusa bölünüb. Sərgi zalları ilə yanaşı, onun zirzəmi hissəsində konfrans zalı, kitabxana və ehtiyat otaq yaradılıb.

Muzeyin eksponatlarla təmin edilməsi vəzifəsini STMEQİ fondu öz üzərinə götürüb. Bu, dünyada dağ yəhudilərini birləşdirən ən böyük təşkilatdır. Hələ layihənin hazırlanması mərhələsində fond diaspor və icmalara müraciət edərək onları qədim əşyaların tapılmasına çağırıb. Həmçinin fond muzeyin bədii tərtibatını da özü həyata keçirib.

Muzeydəki ilk nadir eksponatlar arasında XIX əsrdə toxunmuş tales (örtük ) var. İbadət üçün nəzərdə tutulan bu örtüyün nümunəsindən İsrailin dövlət bayrağının yaradılmasında da istifadə olunub. Taleslərdən toy baldaxinləri kimi də istifadə edilib. Diqqəti cəlb edən daha bir əşya həmin dövrün atlı ekipajıdır. Bundan başqa, muzeydə müxtəlif kitablar və sənədlər, məsələn, ktuba – nikah ayini müqaviləsi nümayiş olunur. Bir çox qədim nəşrlər indiyədək qorunub saxlanılan cuuri üzərində semit, fars və türk dillərinin sintezi şəklində təqdim olunur. Qod Nisanov və Zarah İliyev əmindirlər ki, bir yerdə toplanılmış kitablar gələcəkdə dilin qorunmasına və dağ yəhudilərinin danışdıqları unikal dialektin öyrənilməsinə kömək edəcək.

# AVSTRİYADA DİNİ İCMALAR "FRİDAYS FOR FUTURE" İQLİM NAMİNƏ GƏNCLƏR HƏRƏKATINI DƏSTƏKLƏYİRLƏR

Avstriyanın aparıcı dini icmalarının təmsilçiləri "Fridays for Future" iqlim naminə gənclər hərəkatını dəstəklədiklərini və növbəti nümayişlərə aktiv şəkildə qatılacaqlarını bəyan ediblər.

Birgə mətbuat konfransında növbəti nümayişlərdə dini icmaların nümayəndələrinin də iştirak edəcəyi diqqətə çatdırılıb. İqlim dəyişikliyinin kiminsə inanıb-inanmayacağı məsələ deyil, artıq sübuta yetirilmiş elmi fakt olduğu vurğulanıb.

Roma-katolik, yevangelik, İslam və buddist icmalarının rəsmiləri "Yaradılışı hifz edək - İqlimi qoruyaq" devizi altında cəmiyyətin bütün təbəqələrini iqlim dəyişikliklərinə həssas yanaşmağa çağırıblar. İslam Etiqad İcmasının nümayəndəsi Enis Buzar çıxışında bildirib ki, İslam dini insanları dünyadakı tarazlığı pozmamağa dəvət edir. O, müsəlmanların da mavi planetdə iqlimin qorunmasında fəal iştirak etdiklərini dilə gətirib.

Qeyd edək ki, isveçli iqlim aktivisti Qreta Tunberqin təşəbbüsü əsasında yaranan "Fridays for Future" (Cümə günləri gələcək naminə) hərəkatı dünyanın əksər ölkələrində gənc nəslin qlobal iqlim nümayişlərini özündə ehtiva edir. Məktəbli və gənclərdən başlayan hərəkatda artıq cəmiyyətin digər təbəqələri də fəal şəkildə iştirak edirlər.

# DÜNYA VƏ ƏNƏNƏVİ DİNLƏR LİDERLƏRİNİN VII QURULTAYI 2021-Cİ İLDƏ NUR-SULTANDA KEÇİRİLƏCƏK

Dünya və Ənənəvi Dinlər Liderlərinin VII Qurultayı 2021-ci ildə Qazaxıstanın paytaxtında keçiriləcək.

Ölkə senatının sədri Dariqa Nazarbayevanın başçılığı ilə keçirilən konqres katibliyinin iclasında dünya və ənənəvi dinlərin liderlərinin növbəti görüşünün gündəliyi müəyyənləşdirilib.

İclasda növbəti qurultayda mədəniyyət tədbirlərinin, sənət festivallarının təşkili məsələləri müzakirə olunub. Bundan başqa qurultayın himninin olması və əsas fikirlərin qazax dilində səslənməsi təklif edilib. İclasda qurultayın 2021-ci il iyunun 16-20-də "Müasir dünyada dini liderlərin və icmaların sosial məsuliyyəti" mövzusunda keçiriləcəyi qərarlaşıb.

Qeyd edək ki, Dariqa Nazarbayeva Dünya və Ənənəvi Dinlər Liderləri Konqresi katibliyinin rəhbəri kimi ilk iclası keçirir. Daha əvvəl bu vəzifəni Qazaxıstanın hazırkı prezidenti Kasım-Jomart Tokaev icra edirdi.



# ELMAR MƏMMƏDYAROV BMT-DƏ AZƏRBAYCANA QARŞI HƏYATA KEÇİRİLƏN TERROR HÜCUMLARINDAN DANIŞIB

"Terrorizm və bununla əlaqəli cinayətkar fəaliyyətlər, beynəlxalq sülhə və təhlükəsizliyə, insan hüquqları və əsas azadlıqlarından sərbəst istifadə edilməsinə, o cümlədən bütün üzv dövlətlərin siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ciddi təhlükə olmaqda davam edir. Bu cür fəaliyyətlər sosial və iqtisadi inkişafa da mane olur".

Bunu Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurasının Nazirlər Debatında çıxışı zamanı deyib. Nazir qeyd edib ki, terrorizm ən ağır cinayətlərdən biridir və buna görə pislənilməli, bunu törədənlər mühakimə olunmalıdır: "Terrorçuların müdafiə edilməsi və ideallaşdırılması hallarına yol verilməməlidir. Azərbaycanın həssas coğrafi mövqeyi və bölgədəki həll olunmamış münaqişələrin davam etməsi, üstəlik hamıya məlum olan etnik təmizləmə və ölkəmin suveren ərazilərinin işğalı, terrorçuluq da daxil olmaqla transsərhəd təhlükələrin səviyyəsini yüksəldir. 1980-ci illərin sonundan etibarən, əsassız və qanunsuz ərazi iddialarını həyata keçirmək üçün bir vasitə və müharibə üsulu olaraq, Azərbaycana qarşı dəfələrlə, minlərlə vətəndaşın ölümünə səbəb olan xaricdən yönləndirilmiş terror hücumları həyata keçirilib. Terrorizmin yayılmasına səbəb olan bütün amillərin aradan qaldırılmasının vacibliyini dərk etməklə yanaşı, dünyanın müxtəlif yerlərində münaqişələrin həlli istiqamətindəki səyləri gücləndirmək vacibdir. Silahlı münaqişə bölgələri, xüsusən də xarici hərbi işğal altında olan ərazilər, terrorçulara və mütəşəkkil cinayətkar qrup və şəbəkələrə təbii sərvətlərin istismarı, narkotik vasitələrin və mədəni sərvətlərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və digər əlaqəli cinayətlərdən yararlanmaq üçün əlverişli şərait yaradır".

# TRAMP HİNDİSTAN VƏ PAKİSTAN LİDERLƏRİNƏ MÜNAQİŞƏNİN HƏLLİNDƏ ÖZ VASİTƏÇİLİYİNİ TƏKLİF EDİB



ABŞ Prezidenti Donald Tramp BMT Baş Assambleyasının iclasında Hindistan və Pakistan liderlərinə Kəşmir ətrafındakı münaqişənin həllində bir daha ölkəsinin vasitəçiliyini təklif edib.

Tramp Nyu-Yorkda Pakistan və Hindistan liderləri ilə ikitərəfli görüşlər də keçirib.

"Biz Kəşmiri müzakirə etdik. Mən öz vasitəçiliyimi təklif etdim. Bu iki nüvə ölkəsi məsələni həll etməlidir", - deyə vəziyyətin yaxşılığa doğru gedəcəyinə ümid bəslədiyini əlavə edən Tramp mətbuat konfransında bildirib.

# BMT-NİN BAŞ KATİBİ: DÜNYANIN İKİ GÜC MƏRKƏZİNƏ BÖLÜNMƏSİNƏ YOL VERMƏK OLMAZ

BMT Baş Assambleyasında siyasət diskussiyalarında çıxış edən təşkilatın Baş katibi Antonio Quterreş bildirib ki, "Böyük bölünmə" - dünyanın iki güc mərkəzinə parçalanması artıq reallıqdır və buna yol verməк olmaz.

Baş katib hazırkı qeyri-sabit və beynəlxalq münasibətlərdə gərginliyin artdığı bir şəraitdə iki güc mərkəzinə parçalanma təhlükəsi getdikcə artır. O əlavə edib: "Qorxuram ki, "Böyük bölünmə" baş verə və dünya iki böyük düşərgəyə bölünə; iki nəhəng dünya dövləti öz valyutası, ticarət və maliyyə şərtləri, fərdi maraqları və süni intellekt resursları, habelə "hər şey, yaxud heç nə" prinsipinə söykənən geosiyasi və hərbi strategiyaları ilə iki güc mərkəzi yarada bilər.

Onun sözlərinə görə, münaqişələrin qarşısının alınması və ümumi tərəqqiyə nail olunması üçün mütləq qaydada insan hüquqlarına əməl olunmalıdır. "İnsanların bu təməl haqları heç də güzəşt deyil, onlar verilmir və alınmır. Bu hüquqlar insanlara onların məhz insan olduğuna görə məxsusdur. İnsan haqları ümumi və bölünməz xarakter daşıyır. Onların ayrı-seçkilik prinsipi ilə verilməsi yolverilməzdir. İnsanlar təhlükəsiz və sülh şəraitində yaşamaq, rifaha qovuşmaq, layiqli həyat sürmək, səhiyyə və sosial müdafiədən istifadə etmək, yaxşı qidalanmaq, təhsil və əməkhaqqına sahib olmalıdırlar", - deyə Baş katib vurğulayıb.

BMT-nin rəhbəri təəssüflə qeyd edib ki, bu gün həmin haqların əksəriyyəti pozulur və şübhə altına alınır. Onun sözlərinə görə, yeni avtoritar formalar inkişaf edir, vətəndaş cəmiyyətlərinə hücumlar təşkil olunur, ətraf mühit, hüquq müdafiəçiləri və jurnalistlər təqiblərə məruz qalır: "İndi özgələşdirmə və etimadsızlıq bir silah kimi istifadə olunur. Qorxu isə ən geniş yayılmış vasitədir. Bu, miqrantlar və qaçqınlara münasibətdə özünü daha çox büruzə verir. Onların qarşısında təkcə sərhədlər deyil, həm də "ürəklər" bağlanır. Dünyada düşmənçilik dili geniş yayılır, internetdə dini, etnik əlamətlərə görə təhqir və təqib halları artır".

# RUHANİ BMT-Nİ "FƏALİYYƏTSİZLİKDƏ VƏ SÜKUT"DA QINAYIB

İran Prezidenti Həsən Ruhani BMT-nin Baş katibi Antoniu Qutteresla görüşün gedişatında dünyanın ən böyük beynəlxalq təşkilatını "fəaliyyətsizlikdə və sükut"da ittiham edib.

Bu barədə "Report" İran prezidentinin saytına istinadən xəbər verir.

Görüş cümə axşamı, BMT Baş Assambleyasının 74-cü sessiyasında baş tutub. Ruhani görüşünün gedişatında ABŞ-ın İrana qarşı "təcavüzü və iqtisadi terrorçuluğu"na münasibətdə BMT-ni "fəaliyyətsizlikdə və sükut"da tənqid edib. O, həmçinin İsrailin Fələstin, İraq, Livan və Suriya ilə bağlı hərəkətlərini "cinayət" adlandırıb.

Bundan başqa, İran Prezidenti özünün Hörmüz və ona bitişik Oman, Fars boğazlarında təhlükəsizliyin təmin olunmasını güman edən "Hörmüz sülh təşəbbüsü"ndən danışıb və bu istiqamətdə BMT ilə əməkdaşlıq etmək istəyini təsdiq edib.

BMT-nin Baş katibi öz növbəsində təşəbbüsü alqışlayıb. Antoniu Qutteres, həmçinin nüvə sazişinə dəstək verdiyini bildirib.



# ABŞ-IN ƏDLİYYƏ NAZİRLİYİ «FACEBOOK»A QARŞI ARAŞDIRMA BAŞLATMAQ NİYYƏTİNDƏDİR




ABŞ-ın Ədliyyə Nazirliyi Baş prokuror Vilyam Barrın tapşırığı əsasında "Facebook"a qarşı araşdırma başlatmaq niyyətindədir.

"Report" "Qazeta.Ru"ya istinadən xəbər verir ki, hazırda araşdırma ilə Federal Ticarət Komissiyası (FTC) məşğul olur. Ancaq mənbələr iddia edir ki, indi məsələ ölkənin Ədliyyə Nazirliyinin nəzarətinə keçəcək.

FTC və "Facebook" bu məlumatı şərh etməkdən imtina edib.

Bildirilir ki, "Facebook"un qanun pozuntularına yol verdiyi təsdiqlənəcəyi təqdirdə Ədliyyə Nazirliyi şirkətdən təzminat almaq üçün tədbirlər görəcək.

Xatırladaq ki, daha əvvəl ABŞ Ədliyyə Nazirliyi aparıcı onlayn platformalara qarşı antiinhisar araşdırması başlatdığını bildirmişdi. Nazirlik aparıcı onlayn platformaların bazar üstünlüyünə necə nail olduğunu, onların rəqabəti azaldıb-azaltmadığını və digər istehlakçılara zərər verməyə yönəlmiş fəaliyyətlərdə iştirak edib-etmədikləri ilə maraqlanır.

"Araşdırmanın məqsədi onlayn bazarda rəqabət şərtlərini qiymətləndirmək və amerikalılara sərbəst bazarlara çıxışı təmin etməkdir", - qurumun bəyanatında deyilir.



## ƏRDOĞAN: NÜVƏ SİLAHI YA HAMI ÜÇÜN QADAĞAN EDİLMƏLİ, YA DA ƏLÇATAN OLMALIDIR

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində keçirilən iclasda bildirib ki, bu gün dünyada ədalətsizlik hökm sürür.

R.T.Ərdoğan deyib ki, BMT İkinci Dünya müharibəsindən sonra ədalətsizliyi aradan qaldırmaq üçün qurulub: "Ancaq dünya aclıq, münaqişə, iqlim dəyişikliyi kimi problemlərin həllinə təsirini itirir. Dünyanın bir qismi lüks yaşayırsa, digər tərəfində aclıq, səfalət var. Bu, qəbul edilə bilməz. İki milyon insanın yoxsulluq, 1 milyon insanın aclıq həddində yaşaması qəbuledilməzdir. Dünyanın taleyi məhdud sayda ölkələrin ixtiyarına buraxıla bilməz. Dünya beşdən böyükdür".

Türkiyə Prezidenti qeyd edib ki, nüvə silahlarına malik olanların nüvə silahı olmayanları təhdid etməsi anlaşılandır: "Nüvə silahının tamamilə ləğv edilməsi yerinə hər böhranda bir vasitə kimi ortaya qoyulması düzgün deyil. Nüvə silahı ya hamı üçün qadağan edilməlidir, ya da hamı üçün əlçatan olmalıdır".

## AVROPA ŞURASI RUSİYANI 10 MİLYON AVRO KOMPENSASİYANI GÜRCÜSTANA DƏRHAL ÖDƏMƏYƏ ÇAĞIRIB

Avropa Şurasının (AŞ) Nazirlər Komitəsi Rusiyanı 10 mln. avro həcmində kompensasiyanı Gürcüstana dərhal ödəməyə çağırıb.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, bu barədə komitənin Rusiyadan 2006-cı ildə deportasiya olunanların işi üzrə qəbul etdiyi qərarda bildirilib.

Qərarda qeyd olunub ki, Rusiya Gürcüstana kompensasiyanı 2019-cu ilin aprel ayının 30-na qədər ödəməli idi. Lakin məbləğ bu günə qədər ödənilmədiyinə görə Rusiya tərəfindən müvafiq faizlər də tutulacaq.

Komitə, həmçinin qeyd edib ki, Rusiyanın kompensasiya ödəməsi şərtsiz öhdəlikdir.

Avropa Məhkəməsinin 31 yanvar 2019-cu il tarixli qərarına əsasən, kompensasiya 2006-cı ildə insan haqlarının kobud pozulması ilə Rusiyadan kütləvi deportasiya olunan ən azı 1500 şəxs arasında bölünməlidir.



## RUSİYANIN XİN BAŞÇISI GÜRCÜSTANLA BAĞLI NATO-YA XƏBƏRDARLIQ EDİB

"Gürcüstan NATO-ya üzv olsa, Rusiya müharibəyə başlamayacaq".

Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Kommersant" nəşrinə müsahibəsində bildirib.

Nazirin sözlərinə görə, bu halda Rusiyanın NATO və alyansa üzv olmağı özlərinə əsas prioritet hesab edən ölkələrlə münasibətləri ciddi şəkildə pozulacaq. NATO rəsmilərinin Gürcüstanı Abxaziya və Cənubi Osetiyasız alyansa qəbul etməyin mümkünlüyü barədə bəyanatlarına toxunan Rusiya XİN başçısı bunun baş verəcəyi təqdirdə, ölkəsinin hansı addımları atacağını açıqlayıb: "Əgər Gürcüstan NATO-ya üzv olsa, sizə söz verirəm ki, müharibəni biz başlamayacağıq. Lakin Şimali Atlantika Alyansı və bu alyansa qoşulmağı özləri üçün prioritet hesab edən ölkələrlə münasibətlərimiz ciddi şəkildə korlanacaq. Bundan başqa, Brüsseldə artıq NATO-nun müdafiə alyansından yer kürəsinə demokratiya və təhlükəsizlik gətirən alyansa çevrilməsinin vacibliyi barədə tezislər irəli sürməyə başlayıblar. Hegemonluq, özünü müstəsna hissi - liberallara hər şey olar, qeyri-liberallar isə itaət etməlidirlər".

XİN başçısı müsahibəsində 2008-ci il müharibəsinin başlamasında Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvilini günahlandırıb. O deyib ki, müharibə zamanı Rusiya NATO barədə deyil, insanların həyatlarının xilası barədə düşünüb.

## ABŞ PREZİDENTİ DÜNYA LİDERLƏRİNİ QLOBALLAŞMA PROSESİNDƏN İMTİNA ETMƏYƏ ÇAĞIRIB

ABŞ Prezidenti Donald Tramp dünya liderlərini qloballaşma prosesindən imtina etməyə çağırıb. BMT Baş Assambleyasında çıxış edən Birləşmiş Ştatların dövlət başçısı ölkələrin öz daxilində milliyyətçiliyi gücləndirməsi və qloballaşma prosesini rədd etməsinin vacibliyini bildirib. O əlavə edib ki, "müdrik liderlər öz xalqını və ölkələrini birinci yerə qoymalıdırlar".

ABŞ Prezidenti daha sonra deyib: "Azad dünya milli zəmin üzərində inkişaf etməlidir. Bu amili silmək və ya başqası ilə əvəz etmək olmaz. Gələcək qloballara deyil, vətənpərvərlərə məxsusdur".

Donald Tramp Yaxın Şərqdə "təxribat törədən ölkələrə" qarşı sanksiyaların daha sərt olacağını da vurğulayıb. O, Səudiyyə Ərəbistanında neft emalı zavodlarına hücumlarda İranı ittiham edib və bütün xalqları Tehranın təsirinin artmasına qarşı mübarizəyə çağırıb. D.Tramp İranın mərkəzi bankına qarşı da yeni sanksiyalar elan edib. O, həmçinin Çini də ticarətlə bağlı vədlərinə əməl etməməkdə günahlandırıb. ABŞ Prezidenti ümidvar olduğunu bildirib ki, Vaşinqton heç vaxt özünün güclü hərbi potensialından istifadə etməyəcək.

## İSLAMOFOBİYAYA QARŞI ORTAQ TELEKANAL YARADILACAQ

Türkiyə, Pakistan və Malayziya islamofobiya əleyhinə birgə mübarizə aparacaqlar. Bu barədə BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində keçirilən görüşlərdə bu ölkələrin liderləri Rəcəb Tayyib Ərdoğan, İmran Xan və Mahathir Məhəmməd arasında razılıq əldə olunub.

Pakistan Baş Nazirinin mətbuat xidmətinin məlumatına görə, Nyu-Yorkda keçirilən üçtərəfli görüşdə üç dost müsəlman ölkəsi arasında ikitərəfli və regional əməkdaşlığın perspektivləri ilə yanaşı, son zamanlar Qərbdə daha geniş vüsət almış islamofobiya meyillərinə qarşı səylərin gücləndirilməsi də müzakirə olunub. Qərara alınıb ki, bu məqsədlə Türkiyə, Pakistan və Malayziyanın birgə televiziya kanalı yaradılsın. İmran Xan görüşlə bağlı özünün "twitter" səhifəsində yazıb: "Bu gün Prezident Ərdoğan, Baş Nazir Mahathir və mənim iştirakımla keçirilən görüşdə ingilis dilində ortaq televiziya kanalının yaradılması barədə razılıq əldə olunub. Bu telekanal islamofobiya meyillərinin qarşısını almağa və bizim böyük dinimiz – İslamın təbliğinə xidmət edəcək".

Pakistanın Baş Naziri qeyd edib ki, telekanalda müsəlmanların tarixindən bəhs edən film və seriallar nümayiş olunacaq.

## BEYNƏLXALQ VALYUTA FONDUNUN YENİ RƏHBƏRİ MƏLUM OLUB

Bolqarıstan nümayəndəsi Kristalina Georgiyeva rəsmi olaraq Beynəlxalq Valyuta Fondunun (International Monetary Fund – IMF) idarəedici direktoru vəzifəsinə seçilib. Bundan əvvəl o, Dünya Bankının icraçı direktoru vəzifəsində çalışıb.

K.Georgiyeva vəzifəsinin icrasına oktyabrın 1-dən başlayacaq. Təyinat beşillik fəaliyyət dövrünü əhatə edəcək.

"Bu gün Beynəlxalq Valyuta Fondunun Direktorlar Şurası Kristalina Georgiyevanı 2019-cu ilin oktyabrın 1-dən beşillik müddətə idarəedici direktor və İdarə Heyətinin sədri vəzifəsinə seçdi", - deyə Fondun məlumatında deyilir.

Qeyd edək ki, bundan öncə sözügedən vəzifədə Kristin Laqard çalışıb. Hazırda K.Laqard Avropa Mərkəzi Bankının rəhbəri vəzifəsinə namizəddir. Cari ilin noyabr ayında onun bu vəzifədə olan Mario Draqini əvəzləyəcəyi güman edilir.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, milli-mənəvi dəyərlərin təbliği, eyni zamanda gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*



**2 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçlığı ilə "Sülh aylığı" çərçivəsində "Ümumbəşəri dəyərlər sistemində insan hüquq və azadlıqlarının yeri" mövzusunda;

**3 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçığı ilə İmişli rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında "Sülh aylığı" çərçivəsində "Azərbaycanda vicdan və dini etiqad azadlığı" mövzusunda;

**5 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti (RİH), Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı və Balakən Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz"





mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional mərkəzi və Quba RİH-in birgə təşkilatçılığı ilə rayonun Mədəniyyət Mərkəzində "Azərbaycanda vicdan və dini etiqad azadlığı" mövzusunda;

**6 sentyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daxili Qoşunların Bərdə rayonunda yerləşən N saylı hərbi hissəsində "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda;

**9 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və Qafqaz Müsəlmanları İdarəsinin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Məhərrəmlik (Aşura) mərasimləri ilə bağlı; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Zərdab Rayon Gənclər və İdman İdarəsi, Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivə-



sində "Vicdan və dini etiqad azadlığının təmin olunmasında dini qurumların rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində;

**12 sentyabr** – Daxili Qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsində DQİDK-nın təşkilatçılığı ilə "Azərbaycanın multikultural mühiti və ona qarşı təhdidlər" mövzusunda;

**17 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "İslam dininin humanistliyi" mövzusunda;

**20 sentyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Gənclərin tərbiyəsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə Pedaqoji Kollecdə "Narkotik vasitələrin qəbulu və yayılmasına qarşı mübarizə: hüquqi və mənəvi müstəvidə" mövzusunda;

**26 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən Humanitar və Texniki təmayüllü liseydə "Dini radikalizmə qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarixdiyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə Prezident İlham Əliyevin 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlı Sərəncamına uyğun olaraq "Nəsimi yaradıcılı-



ğında mənəvi dəyərlərimiz" mövzusunda baş tutub.

Tədbirlərdə Məhərrəm ayı ilə bağlı tövsiyələr verilib. Dini radikalizm, ekstremizm kimi məsələlərə toxunulub, çıxış edən natiqlər gənclərin bu yollardan uzaq durmalı olduqlarını vurğulayıblar. Qeyd olunub ki, gənclərin radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini cərəyanlara maraq azalıb. Eyni zamanda, tədbirlərdə gənclərin narkomaniya kimi zərərli meyillərdən uzaq tutulması və bu sahədə qarşıda duran vəzifələrdən danışılıb.



# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Sumqayıt şəhəri "Molokan ruhani-xristian" dini icması**
**Qeydiyyat tarixi:** 08 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 66

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Novoselsev İvan Vasilyeviç, Dereqlazova Yekaterina Timofeyevna, Bannikova Mariya Timofeyevna, Sapleva Mariya Fyodorovna dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Danne Aidə İsmayıl qızı, Danne Albert Albertoviç, Buzo Nadejda Aleksandrovna, Ponomaryov Roman Fyodoroviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 19 sentyabr 2019-cu il

## E L A N

"Lənkəran rayonu Əşlə kənd məscidi" dini icması (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 03 mart 2008-ci il tarixli, 1308Lə1-445 saylı şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 sentyabr 2019-cu il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

* * *

03 mart 2008-ci il tarixli, 1308Lə1-445 saylı şəhadətnamə ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Lənkəran rayonu Əşlə kənd məscidi" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN
№ 09 (338) / SENTYABR 2019-cu il

## DİNLƏRARASI ANLAŞMAYA DƏSTƏK MƏQSƏDİLƏ YENİ İNSTİTUT YARADILIB



Şimali Hindistandakı müxtəlif dini icmalar arasında sülh, harmoniya və həmrəyliyə təşviq məqsədilə Bihar ştatının paytaxtı Patnada yeni Racgir Dinlərarası Dialoq İnstitutunun (IRDIR) açılışı olub. 450-dən çox xristianın, təxminən 250 nəfər hinduist, müsəlman, siqh, buddist və caynist rahibin, eyni zamanda dövlət rəsmilərinin iştirak etdiyi tədbirdə Patna Yeparxiyasının arxiyepiskopu Uilyam Di Souza bildirib ki, institutun əsas vəzifəsi xoşməramlılığı və dini birliyi təbliğ etməkdir. Regionun müsəlman lideri isə öz çıxışında söyləyib ki, bu xristian institutu həyatlarına yeni axın gətirəcək və Racgir əhalisi arasında həmrəylik yaratmağa kömək olacaqdır.

"İnstitut hər üç aydan-bir müxtəlif inanclara sahib dini liderlər, mütəxəssislər və alimlərin iştirakı ilə dəyirmi masa təşkil edəcək. Katolik Kilsəsi sosial problemlərin həlli və cəmiyyətin xoşbəxt həyatının təminatı üçün digər dinlərlə dialoqu inkişaf etdirir. Katolik keşişi olmaq üçün fəlsəfə və teologiyanı öyrənən tələbələr buddist, caynist, sufi, hinduist icmalarının üzvləri ilə birbaşa tanış ola biləcəklər", - deyə direktor Ceyms Rosario institutun əhəmiyyətinə diqqət çəkib.

## SOSİAL ŞƏBƏKƏLƏR ÜÇÜN "9 QAYDA"



Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi arxiyepiskopu Castin Uelbi "Facebook"un Avropa bölməsinin rəhbəri Nikola Mendelson ilə görüşdə sosial şəbəkə üçün hazırladığı doqquz davranış qaydasını təqdim edib. O bildirib ki, sosial şəbəkələr həyat tərzimizi dəyişib. "Bir xristian kimi biz İsanın nümunəsinə əsaslanaraq davranmalıyıq. İnternetdə insanlarla hər dəfə ünsiyyətdə ikən bizim kin və təhqir axınına qoşulmaq, yaxud işıq və lütf paylaşmaq imkanımız var", - deyən arxiyepiskop öz doqquz qaydasına bunları daxil edib: təhlükəsizlik qaydalarına riayət etmək, hər kəsə hörmətlə yanaşmaq, xeyirxah olmaq, səmimiyyətdən qaçmamaq, məsuliyyətli davranmaq, xeyir xəbərlər elçisi olmaq, ləyaqətlə müzakirə aparmaq, başqalarının əməyinə hörmətlə yanaşmaq, sosial şəbəkənin qayda-qanunlarına əməl etmək.

## Ən böyük müsəlman ölkəsi paytaxtını cəngəlliyə köçürəcək

İndoneziya hakimiyyəti paytaxtı möhtəşəm və mənzərəli cəngəlliyi ilə məşhur olan Borneo adasına köçürmək qərarına gəlib. Dövlət başçısı Coko Vidodo bu qərarı hazırkı paytaxt Cakartanın ekoloji və iqtisadi problemləri ilə izah edib.

Bundan əlavə, mütəxəssislər Cakarta üçün mənfi proqnozlar veriblər. Belə ki, onların hesablamalarına görə, hər il şəhərin müəyyən əraziləri orta hesabla 10 santimetr aşağı enir və gələcəkdə su altında qalmaq təhlükəsi var. Cakartadan fərqli olaraq, yeni paytaxt daha əlverişli coğrafi mövqeyə malikdir. Bölgədə sunami və zəlzələ kimi təbii fəlakətlərin baş vermə riski, demək olar ki, yoxdur. Ancaq burada meşə yanğınlarına tez-tez rast gəlinir.

Ekoloqlar isə təbiətə ziyan vuracağı üçün paytaxtın Borneoya köçürülməsi fikrini dəstəkləmirlər. Yeni paytaxtın salınması ilə bağlı son qərar Ətraf Mühitin Mühafizəsi Departamenti layihəni ekoloji baxımdan qiymətləndirdikdən sonra veriləcək. Müsbət nəticə əldə ediləcəyi təqdirdə, 2021-ci ildə paytaxtın köçürülməsi ilə bağlı işlərə başlanılacaq. Xərclərin 30 milyard dolları keçəcəyi bildirilir.

Qeyd edək ki, əhalisinin sayına görə İndoneziya ən böyük müsəlman ölkəsidir. 221 milyon əhalisi olan ölkə vətəndaşlarının 88 faizi İslam dininə sitayiş edir. İslam bu ölkədə XIII-XVI əsrlərdən yayılmağa başlayıb.

### Yadigar söz

**Onore de Balzak**
*(fransız yazıçı-dramaturqu)*

***Həyat beşiklə məzar arasında sınaq müddətidir.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## AMAZON CƏNGƏLLİKLƏRİNDƏ QƏDİM SİVİLİZASİYANIN İZLƏRİ TAPILIB



Braziliyalı arxeoloqlar milli parkın ərazisindəki Amazon hövzəsi meşələrinə ekspedisiyaları zamanı öz dövrü üçün kifayət qədər inkişaf etmiş naməlum bir sivilizasiyanın 3000 illik qalıqlarını aşkar ediblər. Amazonas ştatının ərazisinə düşən dağıntılar qalın cəngəlliklər altında gizlənib.

Maraqlısı budur ki, tədqiqatçılara qədim sivilizasiyanın qalıqlarını tapmağa ispan keşiş Qaspar de Karvahalın salnamələri kömək edib. O, XVI əsrdə Amazon çayı boyunca səyahət edərək bir çox hindu kəndinin təsvirini verib.

Keşişin qeydlərinə görə, indi boş qalan ərazilərdə bir vaxtlar insanlar sıx məskunlaşmışdılar. 40 tədqiqatçıdan ibarət ekspedisiya bunun tamamilə mümkün olduğunu təsdiqləyib. Üstəlik, elm adamları daha qədim və naməlum sivilizasiyanın izlərini aşkarlayıblar. Onlar qeyd edirlər ki, bunlar dağınıq kəndlər olmamışdır, əksinə, yaxşı hazırlanmış memarlıq kompleksini təşkil etmişlər.

Kənd təsərrüfatı işlərinin izləri də burada nə vaxtsa sivilizasiyanın inkişaf etdiyini sübuta yetirir. Məsələn, tədqiqatçıların tapdığı Braziliya qozu meşəliyi çay sahilindən başlayaraq təxminən 500 metr məsafədə uzanır. Aydındır ki, buna mütləq kimsə qulluq etmişdir.

Ərazidə həmçinin çoxlu keramika da tapılıb. Onlardan ən qədiminin 3000 il bundan əvvələ aid olduğu güman edilir. Xüsusilə, müxtəlif dövrlərə aid vazalar və dəfn lövhələri aşkarlanıb. Aşkar edilmiş qablar adıçəkilən ispan keşişin salnamələrində təsvir olunanlara çox bənzəyir.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894